# 1 Padşahlar

*Kitabı*

***Giriş***

*«1 Padşahlar»* Kitabı *«1 və 2 Şamuel»* Kitablarında başlanan İsrail padşahlığının tarixinin davamıdır.

Bu kitabı iki hissəyə ayırmaq olar: Süleymanın hakimiyyəti və nailiyyətləri, xüsusən Yerusəlimdə mə'bədin tikilməsi; İsrailin şimal və cənub padşahlıqlara bölünməsi.

*«1 və 2 Padşahlar»* Kitablarında hər hökmdarın dəyəri Allaha sadiq olması ilə ölçülür. Xalqın uğurları da bu sədaqətdən asılı idi. Bütpərəstlik və itaətsizlik isə bədbəxtliyə aparırdı. Şimal səltənətinin padşahlarından heç biri Allaha sadiq qalmadı, cənubda isə Yəhuda padşahlarının bə'zisi sadiq, bə'zisi isə sədaqətsiz çıxdı. *«1 Padşahlar»* Kitabında Rəbbin peyğəmbərləri əhəmiyyətli rol oynayır. Onlar bütlərə səcdə etməmək üçün adamlara cəsarətlə xəbərdarlıq edir və Allaha tərəf dönməyə çağırırdılar. Bu baxımdan İlyas peyğəmbərlə Baal bütünün kahinlərinin mübahisəsi barədə hekayət xüsusilə diqqəti cəlb edir.

***Kitabın məzmunu***


Davudun padşahlığının sonu 1:1-2:12
Süleymanın padşah olması 2:13-46
Süleymanın hakimiyyəti 3:1-11:43
  Erkən illər 3:1-4:34
  Mə'bədin tikilməsi 5:1-8:66
  Sonrakı illər 9:1-11:43
Səltənətin bölünməsi 12:1-22:53
  Şimal qəbilələrinin üsyanı 12:1-14:20
  Yəhuda və İsrailin padşahları 14:21-16:34
  İlyas peyğəmbər 17:1-19:21
  İsrail padşahı Axav 20:1-22:40
  Yəhuda padşahı Yehoşafat və İsrail padşahı Axazya 22:41-53


### *Padşah Davudun son illəri*

1 1 Padşah Davud qocalıb yaşa dolmuşdu.
Onun üstünü örtüklərlə nə qədər
örtürdülərsə, o isinmirdi. 2 Ə'yanları ona
dedilər: «Ağamız padşah üçün gənc bir qız
axtaraq. Qoy o, padşahın önündə durub
qayğısına qalsın və qoynunda yatsın ki,
ağamız padşah isinsin». 3 Onlar İsrailin bütün
ərazisində gözəl bir qız axtardılar və Şunamlı
Avişaqı tapıb padşahın yanına gətirdilər. 4 Qız
çox gözəl idi. O, padşaha baxıb xidmət etdi,
amma padşah onunla yaxınlıq etmədi.

### *Adoniyanın padşahlıq iddiası*

5 Davudun Haqqitdən olan oğlu Adoniya
«mən padşah olacağam» deyə lovğalanırdı. O
özü üçün döyüş arabaları, atlılar və önündə
gedəcək əlli nəfər hazırlamışdı. 6 Atası Davud
heç vaxt ona «Niyə belə etdin?» deməmişdi.
Adoniya görkəmcə çox yaraşıqlı idi. O,
Avşalomdan sonra dünyaya gəlmişdi.
7 Adoniya Seruya oğlu Yoav və kahin
Evyatarla əlbir oldu və onlar Adoniyaya
kömək etdilər. 8 Amma kahin Sadoq,
Yehoyada oğlu Benaya, peyğəmbər Natan,
Şimey, Rei və Davudun igidləri Adoniyanın
tərəfində deyildilər. 9 Adoniya En-Rogel
yaxınlığındakı Zoxelet qayasında qoyun-keçi,
mal-qara və bəslənmiş heyvanlar qurban kəsdi.
Bütün qardaşlarını – padşahın oğullarını və
padşaha qulluq edən bütün Yəhudalıları
çağırdı, 10 amma peyğəmbər Natanı, Benayanı,
igidləri və qardaşı Süleymanı çağırmadı.

### *Süleymanın padşah e'lan edilməsi*

11 Onda Natan Süleymanın anası Bat-
Şevaya dedi: «Məgər eşitməmisən ki, Haqqit
oğlu Adoniya ağamız Davudun xəbəri
olmadan padşahlıq edir? 12 İndi qulaq as,
özünün və oğlun Süleymanın canını necə
qurtaracağın barədə sənə məsləhət verim:
13 get, padşah Davudun yanına gir və ona
söylə: "Ağam padşah! ‹Məndən sonra
hökmən oğlun Süleyman padşah olacaq və
taxtımda o oturacaq› deyib kənizinə and
içmədinmi? Bəs onda nə üçün Adoniya
padşahlıq edir?" 14 Sən orada padşahla
danışarkən mən səndən sonra girəcəyəm və
sözlərini təsdiq edəcəyəm».
15 Bat-Şeva otağa – padşahın yanına girdi.
Padşah çox qoca idi və Şunamlı Avişaq ona
qulluq edirdi. 16 Bat-Şeva padşahın önündə diz
çöküb tə'zim etdi. Padşah «Nə istəyirsən?»
dedi. 17 Bat-Şeva ona dedi: «Mənim ağam!
"Məndən sonra hökmən oğlun Süleyman
padşah olacaq və taxtımda o oturacaq" deyib
kənizinə Allahın Rəbbin haqqı üçün and içdin.
18 Ağam padşah, indi isə Adoniya padşahlıq

***1:5*** *– 2Şam. 3:4*
***1:11*** *– 2Şam. 12:24*

edir və sənin bundan xəbərin yoxdur. 19 O,
çoxlu mal-qara, bəslənmiş heyvan və qoyun-
keçi qurban kəsdi. Padşahın bütün oğullarını,
kahin Evyatarı və ordu başçısı Yoavı çağırdı,
amma qulun Süleymanı çağırmadı. 20 Ağam
padşah, bütün İsrailin gözü səndədir; sən
onlara bildirməlisən ki, ağam padşahdan
sonra taxtında kim oturacaq. 21 Yoxsa ağam
padşah ataları ilə uyuyanda mən və oğlum
Süleyman müqəssir sayılacağıq».

22 Bat-Şeva hələ padşahla danışarkən
peyğəmbər Natan gəldi. 23 Padşaha
«peyğəmbər Natan gəldi» dedilər. O,
padşahın hüzuruna gəldi və üzüstə əyilib
tə'zim etdi. 24 Natan dedi: «Ağam padşah!
"Məndən sonra Adoniya padşah olacaq və
taxtımda o oturacaq" deyib söyləmisənmi?
25 Adoniya bu gün gedib çoxlu mal-qara,
bəslənmiş heyvan və qoyun-keçi qurban kəsdi
və padşahın bütün oğullarını, ordu başçılarını
və kahin Evyatarı çağırdı. Budur, "Yaşasın
padşah Adoniya!" deyərək onun önündə
yeyib-içirlər. 26 Ancaq o mən qulunu, kahin
Sadoqu, Yehoyada oğlu Benayanı və qulun
Süleymanı çağırmadı. 27 Məgər bu iş ağam
padşahın əmri ilə olub? Bəs sən nə üçün
qullarına bildirmədin ki, ağam padşahdan
sonra taxtında kim oturacaq?»

28 Padşah Davud cavab verib «Bat-Şevanı
yanıma çağırın!» dedi. Bat-Şeva padşahın
hüzuruna gəlib önündə durdu. 29 Padşah and
içib dedi: «Canımı bütün bəlalardan qurtarmış
var olan Rəbbə and olsun ki, 30 "məndən sonra
hökmən oğlun Süleyman padşah olacaq və
mənim əvəzimə taxtımda o oturacaq" deyib
sənin üçün İsrailin Allahı Rəbbə içdiyim andı
bu gün yerinə yetirəcəyəm». 31 Bat-Şeva
padşahın önündə üzüstə yerə əyilib tə'zim
etdi və «Ağam padşah Davud əbədi yaşasın!»
dedi.

32 Padşah Davud dedi: «Kahin Sadoqu,
peyğəmbər Natanı və Yehoyada oğlu
Benayanı mənim yanıma çağırın». Onların
hamısı padşahın hüzuruna gəldi. 33 Padşah
onlara dedi: «Ağanızın ə'yanlarını yanınıza
alın və oğlum Süleymanı mənim qatırıma
mindirib Gixon bulağına endirin. 34 Orada
kahin Sadoq və peyğəmbər Natan onu İsrail
padşahı olmaq üçün məsh etsinlər. Şeypur
çalıb "Yaşasın padşah Süleyman!" söyləyin.
35 Sonra onun dalınca qalxın, o da gəlib
taxtımda otursun, çünki mənim yerimə padşah
olacaq. Onu İsrail və Yəhudaya hökmdar
tə'yin etdim». 36 Yehoyada oğlu Benaya cavab
verib dedi: «Amin! Ağam padşahın Allahı
Rəbb belə istəyir. 37 Rəbb ağam padşaha yar
olduğu kimi Süleymana da yar olsun və onun
taxtını ağam padşah Davudun taxtından daha
uca etsin».

38 Kahin Sadoq, peyğəmbər Natan,
Yehoyada oğlu Benaya, Keretlilər və
Peletlilər Süleymanı padşah Davudun qatırına
mindirib aşağı endilər və onu Gixona qədər
apardılar. 39 Kahin Sadoq ibadət çadırından
yağ buynuzunu götürüb Süleymanı məsh etdi.
Şeypur çalındı və bütün camaat «Yaşasın
padşah Süleyman!» söylədi. 40 Camaat onun
dalınca qalxıb getdi. Onlar ney çalaraq elə
sevinirdilər ki, səslərindən yer titrəyirdi.

41 Adoniya və onunla olan bütün qonaqlar
yeməklərini qurtaranda bu səsi eşitdilər. Yoav
şeypur səsini eşidəndə dedi: «Şəhərdən niyə
gurultu gəlir?» 42 O, sözünü qurtarmamış
birdən kahin Evyatarın oğlu Yonatan gəldi.
Adoniya ona dedi: «Gəl, sən igid adamsan,
yaxşı xəbər gətirərsən». 43 Yonatan Adoniyaya
cavab verib dedi: «Yox, elə deyil, ağamız
padşah Davud Süleymanı padşah etmişdir.
44 Padşah kahin Sadoqu, peyğəmbər Natanı,
Yehoyada oğlu Benayanı, Keretliləri və
Peletliləri Süleymanla birgə göndərdi və onu
padşahın qatırına mindirdilər. 45 Kahin Sadoq
və peyğəmbər Natan Gixonda onu padşah
olmaq üçün məsh etdilər. Oradan sevinclə
qalxıb getdilər və şəhər canlandı. Eşitdiyiniz
səs budur. 46 Üstəlik Süleyman padşahlıq
taxtında oturdu. 47 Ağamız padşah Davudu
təbrik etməyə gələn ə'yanları da "Sənin
Allahın Süleymanın adını sənin adından daha
böyük, taxtını sənin taxtından daha uca etsin!"
deyəndə padşah yatağının üstündən əyildi.
48 Sonra belə dedi: "İsrailin Allahı Rəbbə alqış
olsun ki, bu gün hələ gözlərim görərkən
taxtımda oturan bir nəfər verdi!"»

49 Bunu eşidəndə Adoniyanın bütün
qonaqları təşvişə düşüb qalxdılar və hər kəs
öz yolu ilə getdi. 50 Adoniya isə Süleymandan
qorxaraq qalxıb getdi və qurbangahın
buynuzlarından yapışdı.[1]

[1] **1:50** *Qurbangahın buynuzlarından yapışdı* – qədim Yəhudilərin adətinə görə qurbangahın buynuzlarından yapışmış adamı öldürmək olmazdı. Bax: Çıx. 21:13-14.

51 Bunu Süleymana bildirib dedilər:
«Adoniya padşah Süleymandan qorxur və
qurbangahın buynuzlarından yapışaraq “qoy
padşah Süleyman bu gün mənə and içsin ki,
bu qulunu qılıncla öldürməyəcək” deyir».
52 Süleyman dedi: «Əgər o, ləyaqətli adam
olsa, başından bir tük belə, əskik olmaz,
amma onda bir pislik tapılsa, öləcək».
53 Padşah Süleyman Adoniyanı qurbangahdan
düşürüb gətirtdi. O da gəlib padşah
Süleymana tə’zim etdi və Süleyman ona
«Evinə get!» dedi.

### *Davudun Süleymana vəsiyyəti*

2 1 Davudun ölüm günü yaxınlaşanda
oğlu Süleymana vəsiyyət edərək dedi:
2 «Bu yaxınlarda mən də hamı kimi dünyadan
köçəcəyəm. Sən möhkəm və igid ol. 3 Allahın
Rəbbin verdiyi buyruğu yerinə yetirib Onun
yolu ilə get və Musanın Qanununda yazıldığı
kimi Allahın qaydalarına, əmrlərinə,
hökmlərinə və fərmanlarına əməl et ki,
elədiyin hər işdə və getdiyin hər yerdə uğur
qazanasan. 4 Onda Rəbb mənə verdiyi bu sözü
yerinə yetirəcək: “Əgər övladların öz
yollarına diqqət etsələr, bütün ürəkləri və
canları ilə Mənə sadiq qalsalar, İsrail taxtında
sənin nəslindən bir kişi əskik olmayacaq”.

5 Sən Seruya oğlu Yoavın mənə nə
elədiyini bilirsən: İsrail ordusunun iki başçısı
Ner oğlu Avnerlə Yeter oğlu Amasanı
öldürərək sülh zamanı hərb qanı tökdü və
belindəki kəmərlə ayağındakı çarıqları qana
bulaşdırdı. 6 Sən öz hikmətinə görə davran,
qoy onun ağarmış başı ölülər diyarına salamat
enməsin.

7 Gileadlı Barzillayın oğullarına
xeyirxahlıq et, qoy süfrəndə yemək
yeyənlərin arasında olsunlar. Çünki mən
qardaşın Avşalomun önündən qaçdığım vaxt
onlar mənə kömək etdilər.

8 Baxurimdən olan Binyaminli Gera oğlu
Şimey də sənin yanındadır. Maxanayimə
getdiyim gün o məni ağır lə’nətlədi. Ancaq
sonra məni qarşılamaq üçün İordan çayı
sahilinə endi və mən ona “səni qılıncla
öldürməyəcəyəm” deyə Rəbbin haqqı üçün
and içdim. 9 İndi onu cəzasız qoyma, çünki
sən müdrik adamsan və ona nə edəcəyini
bilirsən. Onun ağarmış başını qan içində
ölülər diyarına göndər».

### *Davudun ölümü*

10 Davud ataları ilə uyudu və Davudun
şəhərində basdırıldı. 11 Davud İsrail üzərində
qırx il padşah olmuşdu: yeddi il Xevronda və
otuz üç il Yerusəlimdə padşahlıq etmişdi.
12 Süleyman atası Davudun taxtında oturdu və
onun padşahlığı çox möhkəm oldu.

### *Adoniyanın öldürülməsi*

13 Haqqit oğlu Adoniya Süleymanın anası
Bat-Şevanın yanına gəldi. Bat-Şeva dedi:
«Xeyirlə gəlirsənmi?» Adoniya «bəli» deyə
cavab verdi. 14 Sonra dedi: «Sənə söyləyəcək
sözüm var». Bat-Şeva «söylə» dedi. 15 O dedi:
«Sən bilirsən ki, padşahlıq mənim idi və
bütün İsraillilər mənim padşah olacağımı
gözləyirdilər, ancaq hər şey dəyişdi, padşahlıq
qardaşımın əlinə keçdi, çünki Rəbb belə etdi.
16 İndi səndən bir xahişim var, mənə “yox”
demə». Bat-Şeva ona «söylə» dedi. 17 O dedi:
«Xahiş edirəm, padşah Süleymana söylə – o
sənə “yox” deməz – qoy Şunamlı Avişaqı
mənə arvad olmaq üçün versin». 18 Bat-Şeva
dedi: «Yaxşı, mən səndən ötrü padşahla
danışaram».

19 Bat-Şeva Adoniya barədə padşah
Süleymanla danışmaq üçün onun yanına getdi.
Padşah onu qarşılamaq üçün ayağa qalxdı və
ona tə’zim etdi, sonra taxtına oturdu. Padşah
anası üçün də bir taxt qoydurdu. O, padşahın
sağında oturdu, 20 sonra dedi: «Mənim səndən
kiçik bir xahişim var, mənə “yox” demə».
Padşah ona dedi: «Söylə, ana, mən sənə “yox”
deməròm». 21 Bat-Şeva dedi: «Şunamlı
Avişaqı qardaşın Adoniyaya arvad olmaq
üçün ver». 22 Padşah Süleyman anasına cavab
verib dedi: «Niyə Adoniya üçün Şunamlı
Avişaqı istəyirsən? Padşahlığı da onun üçün
istə, üstəlik onunla birlikdə kahin Evyatarla
Seruya oğlu Yoav üçün istə. Axı o mənim
böyük qardaşımdır!» 23 Padşah Süleyman
Rəbbin haqqı üçün and içərək dedi: «Əgər
Adoniya bu sözü öz həyatı bahasına
söyləməmişsə, Allah məni belə və bundan
betər etsin. 24 İndi məni möhkəmləndirib atam
Davudun taxtında oturtmuş və söylədiyi kimi

***2:5*** *– 2Şam. 3:27*
***2:5*** *– 2Şam. 20:10*
***2:7*** *– 2Şam. 17:27-29*
***2:8*** *– 2Şam. 16:5-1*
***2:8*** *– 2Şam. 19:16-23*
***2:11*** *– 2Şam. 5:4-5; 1Saln. 3:4*
***2:12*** *– 1Saln. 29:23*

mənə bir ev qurmuş var olan Rəbbə and olsun
ki, Adoniya hökmən bu gün öldürüləcək!»
25 Padşah Süleyman Yehoyada oğlu Benayaya
əmr etdi, Benaya da gedib Adoniyanı vurdu
və o öldü.

### *Evyatarın qovulması və Yoavın ölümü*

26 Padşah kahin Evyatara da dedi: «Anatota,
öz tarlalarına get! Sən ölümə layiqsən, amma
indi səni öldürmürəm. Çünki atam Davudun
önündə Xudavənd Rəbbin sandığını
daşıyırdın və atamın çəkdiyi hər əzabı sən də
çəkirdin». 27 Beləcə Süleyman Evyatarı
Rəbbin kahinliyindən qovdu. Bununla da
Elinin evinə qarşı Rəbbin Şiloda söylədiyi söz
yerinə yetdi.

28 Xəbər Yoava çatdı. Yoav Avşaloma
qoşulmadığı halda Adoniyanın tərəfini
tutmuşdu. Buna görə də o, Rəbbin ibadət
çadırına qaçdı və qurbangahın buynuzlarından
yapışdı. 29 Padşah Süleymana söylədilər:
«Yoav Rəbbin ibadət çadırına qaçdı və indi
qurbangahın yanındadır». Süleyman «get, onu
öldür» deyə Yehoyada oğlu Benayanı
göndərdi. 30 Benaya Rəbbin ibadət çadırına
gəlib Yoava dedi: «Çıx, padşah belə deyir!»
O dedi: «Yox, burada öləcəyəm». Benaya
padşaha «Yoav belə dedi və mənə bu cavabı
verdi» deyə xəbər gətirdi. 31 Padşah ona dedi:
«Onun dediyi kimi et: onu orada öldür və
basdır ki, Yoavın səbəbsiz tökdüyü qanın
təqsirini mənim və atamın evi üzərindən
götürəsən. 32 Rəbb onun qanını öz başına
döndərəcək, çünki o özündən daha saleh və
daha yaxşı olan iki nəfəri qılıncla vurdu: atam
Davudun xəbəri olmadan İsrail ordusunun
başçısı Ner oğlu Avnerlə Yəhuda ordusunun
başçısı Yeter oğlu Amasanı öldürdü. 33 Beləcə
onların qanı həmişəlik Yoavın və onun
nəslinin üstündə qalacaq, amma Rəbb Davuda,
onun nəslinə, evinə və taxtına əbədi əmin-
amanlıq verəcək». 34 Yehoyada oğlu Benaya
yuxarıya getdi, Yoavı vurub öldürdü və onu
çöldəki evində basdırdılar.

35 Padşah Yoavın yerinə Yehoyada oğlu
Benayanı ordu başçısı qoydu. Evyatarın
yerinə isə kahin Sadoqu tə'yin etdi.

### *Şimeyin ölümü*

36 Padşah Şimeyi çağırtdırıb ona dedi:
«Yerusəlimdə özünə bir ev tik və orada yaşa,
heç yerə getmə. 37 Oradan çıxıb Qidron
vadisini keçdiyin gün, bil ki, hökmən
öləcəksən və qanın öz üstündə qalacaq».
38 Şimey padşaha dedi: «Sözünlə razıyam,
ağam padşah necə dedisə, qulun elə də
edəcək». Şimey uzun müddət Yerusəlimdə
yaşadı.

39 Üçüncü ilin sonunda Şimeyin iki qulu
Qat padşahı Maaka oğlu Akişin yanına qaçdı.
Şimeyə xəbər gəldi ki, qulları Qatdadır. 40 O
qalxıb eşşəyini palanladı, qullarını axtarmaq
üçün Qata, Akişin yanına gedib onları Qatdan
gətirdi. 41 Şimeyin Yerusəlimdən Qata gedib-
gəlmək xəbəri Süleymana çatdı. 42 Padşah
Şimeyi çağırtdırıb ona dedi: «Səni Rəbbin
haqqına and içdirmədimmi? "Çıxıb bir yerə
getdiyin gün, bil ki, hökmən öləcəksən!" deyə
sənə xəbərdarlıq etmədimmi? Sən də mənə
"yaxşı, sözünlə razıyam" demədinmi? 43 Elə
isə Rəbbə içdiyin anda və sənə verdiyim əmrə
niyə əməl etmədin?» 44 Sonra padşah Şimeyə
dedi: «Sən atam Davuda qarşı ürəyində
saxladığın və etdiyin pisliklərin hamısını
bilirsən. Pisliyini Rəbb sənin öz başına
döndərəcək. 45 Amma qoy padşah Süleyman
xeyir-dua alsın və Davudun taxtı Rəbbin
önündə əbədi möhkəmlənsin». 46 Padşah
Yehoyada oğlu Benayaya əmr etdi, Benaya da
gedib Şimeyi vurdu və o öldü. Beləliklə,
Süleymanın padşahlığı möhkəmləndi.

### *Süleymanın Allahdan hikmət istəməsi*

*(2Saln. 1:3-12)*

3 1 Süleyman Misir padşahı fir'onun
qızını arvad alaraq onunla müttəfiq oldu.
Öz sarayı, Rəbbin mə'bədi və Yerusəlimin
ətrafındakı divarlar tikilib qurtarana qədər
arvadını Davudun şəhərinə gətirdi. 2 Xalq isə
hələ səcdəgahlarda qurban gətirirdi, çünki o
günlərə qədər Rəbbin adına tikilmiş bir
mə'bəd yox idi. 3 Süleyman atası Davudun
qanunlarına əməl edərək Rəbbi sevirdi, ancaq
səcdəgahlarda qurban gətirir və buxur
yandırırdı.

4 Padşah qurban gətirmək üçün Giveona
getdi, çünki ora səcdəgahların ən böyüyü idi.
Süleyman o qurbangahda min baş yandırma
qurbanı təqdim etmişdi. 5 Giveonda Rəbb
Süleymana gecə vaxtı yuxuda göründü. Allah

---

***2:26** – 2Şam. 15:24*
***2:26** – 1Şam. 22:20-23*
***2:27** – 1Şam. 2:27-36*

dedi: «Nə istəyirsən, sənə verim?» 6 Süleyman
dedi: «Sən qulun atam Davuda böyük
xeyirxahlıq göstərdin, çünki o Sənin önündə
sadiq və saleh işlər görürdü, bütün ürəyi ilə
səninlə idi. Bu gün də taxtında oturan bir oğul
verməklə ona öz böyük xeyirxahlığını
saxladın. 7 İndi, ya Rəbb Allahım, öz qulunu
atam Davudun yerinə padşah etdin. Ancaq
mən çox cavanam, nə edib-etməyəcəyimi
bilmirəm. 8 Qulun Sənin seçdiyin xalqın –
saysız-hesabsız böyük bir kütlənin arasındadır.
9 İndi mənə elə bir dərrakəli ürək ver ki, yaxşı
ilə pisi ayırd edib sənin xalqına hökm edə
bilim. Başqa cür Sənin bu böyük xalqını kim
idarə edə bilər?» 10 Süleymanın bu istəyi
Xudavəndin gözünə xoş gəldi. 11 Allah ona
dedi: «İndi ki özün üçün uzun ömür, var-
dövlət və düşmənlərinin canını istəmədin,
bunların yerinə ədaləti ayırd etmək üçün
dərrakə istədin, 12 Mən istəyini yerinə
yetirirəm: sənə elə bir hikmətli və dərrakəli
ürək verirəm ki, sənin kimisi nə səndən əvvəl
olmuş, nə də səndən sonra olacaq. 13 Hətta
sənə istəmədiyini – var-dövləti də, şöhrəti də
verirəm; belə ki bütün ömrün boyu padşahlar
arasında sənin kimisi olmayacaq. 14 Əgər sən
də atan Davud kimi qanunlarıma və
əmrlərimə əməl edib yolumla getsən, sənin
ömrünü də uzadacağam».

15 Süleyman oyandı. Bu, bir yuxu idi. Sonra
Yerusəlimə gəldi. Xudavəndin Əhd
sandığının önündə durub yandırma qurbanları
və ünsiyyət qurbanları təqdim etdi və bütün
ə'yanları üçün ziyafət verdi.

### *Süleymanın hikmətlə hökm verməsi*

16 Bir gün iki fahişə qadın gəlib padşahın
hüzurunda durdu. 17 Qadınlardan biri dedi:
«Yalvarıram, ay ağam! Mən bu qadınla bir
evdə yaşayıram. Bu evdə onun yanında uşaq
doğdum. 18 Mən doğandan sonra üçüncü gün
bu qadın da doğdu. Biz bir yerdə olurduq,
evdə bizdən başqa heç kəs yox idi, yalnız
ikimiz idik. 19 Gecə bu qadın yatanda oğlu
onun altında qalıb öldü. 20 Kənizin yuxuda
ikən gecə yarısı bu qadın qalxaraq oğlumu
yanımdan götürüb öz qoynuna almış, ölü
oğlunu isə mənim qoynuma qoymuşdur.
21 Səhər oğlumu əmizdirmək üçün duranda
gördüm ki, o ölüb. Amma sonra diqqətlə
baxanda bildim ki, bu mənim doğduğum uşaq
deyil».

22 O biri qadın isə dedi: «Yox, sağ olan uşaq
mənim oğlumdur, ölən isə səninkidir». Amma
birinci qadın dedi: «Yox, ölən uşaq sənin
oğlundur, sağ olan mənimkidir». Padşahın
önündə onlar beləcə mübahisə edirdilər.

23 Padşah dedi: «Biri deyir, sağ olan uşaq
mənim oğlumdur, ölən səninkidir; o biri isə
deyir, yox, ölən uşaq sənin oğlundur, sağ olan
mənimkidir». 24 Padşah yenə dedi: «Mənə
qılınc gətirin!» Padşaha qılınc gətirdilər.
25 Padşah dedi: «Sağ olan uşağı iki yerə bölün:
yarısını birinə, yarısını isə o birinə verin!»
26 Oğlu sağ olan qadın balası üçün ürəyi
yandığına görə padşaha belə söylədi: «Aman,
ağam, sağ olan uşağı ona verin, amma
öldürməyin». O biri isə dedi: «Bölün, qoy nə
onun olsun, nə mənim». 27 Onda padşah cavab
verib dedi: «Sağ olan uşağı birinci qadına
verin, onu öldürməyin, uşağın anası odur».

28 Bütün İsraillilər padşahın verdiyi hökmü
eşidib ona hörmət etdilər, çünki gördülər ki,
hökm etmək üçün onda Allahın hikməti var.

### *Süleymanın ə'yanları*

4 1 Padşah Süleyman bütün İsrail
üzərində hökmran idi. 2 Ə'yanları da
bunlar idi:

kahin – Sadoq oğlu Azarya;
3 mirzələr – Şişanın oğulları Elixoref və Axiya;
salnaməçi – Axilud oğlu Yehoşafat;
4 ordu başçısı – Yehoyada oğlu Benaya;
kahinlər – Sadoq və Evyatar;
5 baş vali – Natan oğlu Azarya;
padşahın həmsöhbəti – kahin Natan oğlu Zavud;
6 saray rəisi – Axişar;
mükəlləfiyyətçilər üzərində nəzarətçi – Avda oğlu Adoniram.

7 Bütün İsrail üzərində Süleymanın on iki
bölgə valisi var idi. Onlar padşahı və onun
evini ərzaqla tə'min edirdilər və hər biri ildə
bir aylıq ərzaq göndərməli idi. 8 Onların adları
belədir:

Efrayimin dağlıq bölgəsində Ben-Xur;
9 Maqas, Şaalvim, Bet-Şemeş və Elon-Bet-Xanan bölgələrində Ben-Deqer;
10 Soko və bütün Xefer torpağının da aid olduğu Arubbot bölgəsində Ben-Xesed;

11 bütün Nafat-Dor bölgəsində
Süleymanın qızı Tafatın əri olan
Ben-Avinadav;
12 Taanak, Megiddo, İzreelin altındakı
Sartanın yanında olan bütün Bet-
Şean bölgəsində və Bet-Şeandan
Avel-Mexolaya, Yoqmeamın o biri
tərəfinə qədər uzanan bölgədə
Axilud oğlu Baana;
13 Gileadda olan Menaşşe oğlu Yairin
kəndlərinin və Başanda olan Arqov
ətrafında divarlar və tunc sürgülərlə
bağlanmış altmış böyük şəhərin aid
olduğu Ramot-Gilead bölgəsində
Ben-Gever;
14 Maxanayim bölgəsində İddo oğlu
Axinadav;
15 Naftali torpağında Süleymanın qızı
Basmatı arvad alan Aximaas;
16 Aşer torpağında və Alot bölgəsində
Xuşay oğlu Baana;
17 İssakar torpağında Paruah oğlu
Yehoşafat;
18 Binyamin torpağında Ela oğlu Şimey;
19 Gilead torpağında, yə'ni keçmişdə
Emorluların padşahı Sixona və
Başan padşahı Oqa məxsus olan
ölkədə bu bölgənin yeganə valisi
olan Uri oğlu Gever.

### *Süleymanın bir günlük tə'minatı*

20 Yəhudalılar və İsraillilər dəniz qırağında
olan qum qədər çox idilər. Onlar yeyib-içir və
xoşbəxt yaşayırdılar. 21 Süleyman Fərat
çayından Filiştlilərin torpağına və Misir
sərhədinə qədər bütün padşahlıqlar üzərində
hökmranlıq edirdi. Onlar Süleymanın
ömrünün axırına qədər xərac verdilər və ona
qulluq etdilər.
22 Süleymanın evinin gündəlik ərzağı
bunlardan ibarət idi: otuz kor narın un və
altmış kor iri üyüdülmüş un, 23 on baş
bəslənmiş mal-qara, iyirmi otlaq öküzü, yüz
qoyun, maral, ceyran, cüyür və bəslənmiş ev
quşları. 24 Tifsahdan Qəzzəyə qədər Fərat
çayının bu tayındakı bütün torpaqlar və çayın
bu tayındakı bütün padşahlar üzərində
Süleyman hökmranlıq edirdi və bütün ətraf
ölkələrlə sülh şəraitində yaşayırdı. 25 Onun
bütün ömrü boyu Dandan Beer-Şevaya qədər
Yəhuda və İsraildə hər kəs öz üzüm
meynəsinin və əncir ağacının altında dinclik
içində yaşayırdı.
26 Süleymanın qırx min axurunda döyüş
arabaları üçün atları və on iki min atlısı var idi.
27 Valilərin hər biri öz ayında padşah
Süleymana və onun süfrəsinə gələnlərin
hamısına ərzaq göndərirdi və heç bir şeyə
ehtiyac qalmırdı. 28 Hər vali ona verilmiş əmrə
görə döyüş və çapar atlarının olduqları yerə
arpa-saman göndərirdi.

### *Süleymanın misilsiz hikməti*

29 Allah Süleymana dəniz sahilindəki qum
qədər bol hikmət, dərrakə və ürək genişliyi
verdi. 30 Süleymanın hikməti bütün şərq
xalqlarının və Misirlilərin hikmətindən üstün
idi. 31 O bütün adamlardan, Ezrahlı Etandan,
Maxolun oğulları Heman, Kalkol və
Dardadan hikmətli idi, bütün ətraf millətlər
arasında şöhrəti yayılmışdı. 32 O, üç min
məsəl söyləmişdi və onun min beş nəğməsi
var idi. 33 Livanda olan sidr ağacından tutmuş
divarda bitən züfa otuna qədər bitkilər barədə
bəhs etdi, həmçinin heyvanlar, quşlar,
həşəratlar və balıqlar haqqında danışdı.
34 Süleymanın hikmətli sözlərinə qulaq asmaq
üçün bütün xalqlardan və onun hikməti
barədə eşitmiş bütün dünya padşahlarından
yanına adamlar gəlirdi.

### *Mə'bədin tikilməsinə hazırlıq*

*(2Saln. 2:1-18)*

5 1 Sur padşahı Xiram atasının yerinə
Süleymanın padşah olmaq üçün məsh
edildiyini eşidəndə öz adamlarını onun yanına
göndərdi, çünki Xiram Davudla bütün ömrü
boyu dost olmuşdu. 2 Süleyman Xirama xəbər
göndərib dedi: 3 «Sən bilirsən ki, atam Davud
Allahı Rəbbin adına bir mə'bəd tikə bilmədi.
Çünki Rəbb düşmənlərini onun ayaqları altına
atana qədər ətrafında müharibələr gedirdi.
4 Ancaq indi Allahım Rəbb mənə hər tərəfdən
əmin-amanlıq verib: nə bir düşmən var, nə də
bir əngəl. 5 Mən Allahım Rəbbin adına bir
mə'bəd tikmək niyyətindəyəm; necə ki Rəbb
atam Davuda demişdi: "Sənin yerinə taxtında
oturdacağım oğlun Mənim adıma mə'bəd
tikəcək". 6 İndi əmr et ki, mənim üçün Livan
dağlarından sidr ağacları kəsilsin. Adamlarım

---

***4:21** – Yar. 15:18; 2Saln. 9:26*

***4:26** – 1Pad. 10:26; 2Saln. 1:14; 9:25*
***4:31** – Zəb. 89 başlıq*
***4:32** – Sül.Məs. 1:1; 10:1; 25:1; Nəğ. 1:1*
***5:5** – 2Şam. 7:12-13; 1Saln. 17:11-12*

da sənin adamlarınla birgə olacaq və mən
sənin adamların üçün nə qədər desən, o qədər
zəhmət haqqı verəcəyəm. Çünki bilirsən ki,
bizdə Sidonlular kimi ağac kəsməyi bilən
adamlar yoxdur».

7 Xiram Süleymanın sözlərini eşidəndə çox
sevindi və dedi: «Bu gün Rəbbə alqış olsun ki,
bu böyük xalqı idarə etmək üçün Davuda belə
müdrik oğul verdi!» 8 O, Süleymana xəbər
göndərib dedi: «Mənə göndərdiyin sözü
eşitdim. Mən sənin sidr və şam ağacları
barədə hər istəyini yerinə yetirəcəyəm:
9 mənim adamlarım onları Livandan dənizə
endirərlər və mən bu ağaclardan sallar
düzəldərəm, dəniz yolu ilə tə'yin edəcəyin
yerə apararam və onları orada ayırıb yığaram,
sən isə götürərsən. Ancaq sən də mənim
istəyimi yerinə yetirib evimi ərzaqla tə'min
et». 10 Xiram Süleymana istədiyi qədər sidr və
şam ağacları verirdi. 11 Süleyman isə hər il
Xiramın evi üçün ərzaq olaraq iyirmi min kor
buğda və iyirmi kor xalis zeytun yağı verirdi.
12 Rəbb və'd etdiyi kimi Süleymana hikmət
verdi. Xiramla Süleyman arasında sülh var idi
və onlar bir-biri ilə saziş bağlamışdılar.

13 Padşah Süleyman bütün İsraillilər üzərinə
əmək mükəlləfiyyəti qoydu.
Mükəlləfiyyətçilər otuz min nəfər idi. 14 Hər
ay onların on min nəfərini növbə ilə Livana
göndərirdi; bir ay Livanda, iki ay evlərində
qalırdılar. Onların üzərində Adoniram nəzarət
edirdi. 15 Süleymanın yük daşıyan yetmiş min
və dağlarda daş yonan səksən min adamı var
idi. 16 Bunlardan başqa, Süleyman işə nəzarət
etmək üçün üç min üç yüz nəfər mə'mur
qoymuşdu. Onlar adamlara hökm edir və iş
görürdülər. 17 Padşahın əmrinə görə işçilər
mə'bədin bünövrəsini yonulmuş daşdan
qoymaq üçün böyük və dəyərli daşlar kəsib
gətirdilər. 18 Süleymanın və Xiramın ustaları
Gevallılarla birgə mə'bədi tikmək üçün
taxtalar və daşlar yonub hazırladılar.

### *Mə'bədin tikilməsi*

*(2Saln. 3:1-14)*

6 1 İsrail övladları Misir torpağından
çıxdıqdan dörd yüz səksən il sonra –
Süleymanın İsrail üzərində padşahlığının
dördüncü ilində, ikinci ay olan Ziv ayında o,
Rəbbə mə'bəd tikməyə başladı. 2 Padşah
Süleymanın Rəbbə tikdiyi mə'bədin uzunluğu
altmış, eni iyirmi və hündürlüyü otuz qulac
idi. 3 Mə'bədin böyük otağının önündə olan
eyvanın uzunluğu mə'bədin eninə görə iyirmi
qulac və eni mə'bədin önündə on qulac idi.
4 O, mə'bəd üçün qəfəslə bağlı pəncərələr
düzəltdi. 5 Mə'bədin divarına bitişik, bütün
mə'bədin divarını, yə'ni böyük otağı və iç
otağı dövrəyə alan artırma tikdi. Onun içində
mə'bədi əhatə edən yan otaqlar düzəltdi.
6 Artırmanın alt mərtəbəsinin eni beş,
ortasındakının eni altı, üçüncüsünün eni isə
yeddi qulac idi. Çünki artırmanın dirəkləri
mə'bədin divarına dəyməsin deyə mə'bədin
divarı ətrafında bayır tərəfdən çıxıntılar
düzəldilmişdi.

7 Mə'bədin tikilməsi üçün karxanada
hazırlanan yonulmuş daşlar işlədilmişdi.
Mə'bəddə tikinti zamanı nə gürzün, nə
iskənənin, nə də başqa bir dəmir alətin səsi
eşidildi. 8 Orta mərtəbəyə giriş mə'bədin sağ
tərəfində idi. Pilləkənlərlə orta mərtəbəyə,
orta mərtəbədən isə üçüncü mərtəbəyə
çıxırdılar. 9 Beləcə Süleyman mə'bədi tikib
qurtardı. Mə'bədi sidr ağacından olan tirlər və
taxtalarla örtdü. 10 Bütün mə'bədə bitişik olan
mərtəbələri beş qulac hündürlüyündə tikdi və
bunlar sidr dirəklərlə mə'bədə bərkidilmişdi.

11 Süleymana Rəbbin bu sözü nazil oldu:
12 «Budur, sən mə'bəd tikirsən. Əgər sən
Mənim qaydalarımla getsən, hökmlərimə və
əmrlərimə uyğun hərəkət etsən, onda Mən
atan Davuda verdiyim sözü sənin vasitənlə
yerinə yetirəcəyəm: 13 İsrail övladlarının
arasında yaşayacağam və xalqım İsraili tərk
etməyəcəyəm».

14 Süleyman mə'bədi tikib qurtardı.
15 Mə'bədin divarlarına içəridən sidr taxtalarla
örtük vurdu və mə'bədin döşəməsini şam
ağacından olan taxtalarla örtdü. Beləcə
mə'bədi döşəməsindən divarlarına və
tavanına qədər ağacla örtdü. 16 Mə'bədin arxa
tərəfində döşəmədən tavana qədər sidr
taxtalarla örtülmüş uzunluğu iyirmi qulac olan
bir bölmə ayırıb orada Ən Müqəddəs yer üçün
bir iç otaq hazırladı. 17 İç otağın bayırında olan
böyük otaq qırx qulac uzunluğunda idi.
18 Mə'bədin içindəki sidr ağaclarının üstündə
balqabaq və açılmış güllərin təsviri
oyulmuşdu. Hər şey sidrlə örtülmüşdü, daş
heç görünmürdü. 19 Mə'bədin içərisindəki iç
otağı isə o, Rəbbin Əhd sandığını qoymaq
üçün hazırladı. 20 İç otağın uzunluğu iyirmi,

---

***6:16*** *– Çıx. 26:33-34*

eni iyirmi və hündürlüyü iyirmi qulac idi.
Oranı və sidr ağacından olan qurbangahın
üstünü xalis qızılla örtdü. 21 Süleyman
mə’bədi içəridən xalis qızılla örtdü, iç otağın
önündən qızıl zəncirlər keçirdi və onu qızılla
örtdü. 22 O bütün mə’bədi tikib qurtararaq onu
başdan-başa qızılla örtdü. İç otağa aid olan
qurbangahı da tamamilə qızılla örtdü.

23 İç otaqda zeytun ağacından hündürlüyü
on qulac olan iki keruv düzəltdi. 24 Keruvun
bir qanadının uzunluğu beş qulac, o biri
qanadının da uzunluğu beş qulac idi; bir
qanadının ucundan o biri qanadının ucuna
qədər on qulac idi. 25 O biri keruvun ölçüsü də
on qulac idi. Hər iki keruv eyni ölçüdə və
eyni görkəmdə idi. 26 Hər ikisinin hündürlüyü
on qulac idi. 27 O, keruvları mə’bədin iç
otağının ortasına qoydu. Keruvların qanadları
açıq idi. Bir keruvun qanadı bir divara, o
birisinin qanadı isə o biri divara toxunurdu.
Onların o biri qanadları mə’bədin ortasında
bir-birinə toxunurdu. 28 O, keruvları qızılla
örtdü.

29 Mə’bədin iç və bayır otağındakı bütün
divarlarında keruvların, xurma ağaclarının və
açılmış güllərin oyma təsvirini düzəltdi.
30 Mə’bəddə iç və bayır otağın döşəməsini
qızılla örtdü.

31 İç otağın girişi üçün zeytun ağacından
qapılar düzəltdi. Onların çərçivəsi beşguşəli
idi. 32 O, zeytun ağacından düzəldilmiş iki
qapı üzərində keruvların, xurma ağaclarının
və açılmış güllərin təsvirini oydu və qapıları
qızılla örtdü. Keruvların və xurma ağaclarının
üstünə qızıl çəkdi. 33 Eləcə də böyük otağın
girişi üçün zeytun ağacından dördguşəli
çərçivə, 34 həmçinin şam ağacından iki qapı
düzəltdi. Bir qapının hər iki tayı qatlanırdı, o
biri qapının da hər iki tayı qatlanırdı.
35 Onların üstündə keruvların, xurma
ağaclarının, açılmış güllərin təsvirini oydu və
oyma işinin üstünü qızılla örtdü. 36 O, üç cərgə
yonulmuş daşlardan və bir cərgə sidr
dirəklərdən içəri həyət tikdi.

37 Dördüncü ildə, Ziv ayında Rəbbin
mə’bədinin bünövrəsi qoyuldu, 38 on birinci
ildə, səkkizinci ay olan Bul ayında mə’bəd
bütün ləvazimatı ilə birgə və bütün şəklinə
görə tikilib qurtardı. Beləcə Süleyman onu
yeddi ilə tikdi.

### *Süleymanın sarayı*

7 1 Ancaq Süleyman öz sarayını ətrafdakı
bütün evlərlə birlikdə on üç ilə tikib
qurtardı. 2 Onun tikdiyi «Livan meşəsi» adlı
sarayın uzunluğu yüz, eni əlli, hündürlüyü isə
otuz qulac idi. O, dörd cərgə sidr sütunlardan
və sütunlar üzərində olan sidr dirəklərdən
ibarət idi. 3 Sütunlar üzərindəki qırx beş
dirəyin üstündə sidrdən olan dam salınmışdı
və hər cərgədə on beş dirək var idi. 4 Pəncərə
çərçivələri üç cərgə idi və onların içində
qarşı-qarşıya üç cərgə pəncərə var idi. 5 Bütün
girişlər və onların çərçivələri dördguşəli idi.
Girişlər qarşı-qarşıya olmaqla üç cərgə idi.

6 Süleyman uzunluğu əlli, eni otuz qulac
olan sütunlu bir eyvan tikdi. Qabağında
artırma və sütunlar, onların qabağında isə eşik
düzəltdi. 7 O həmçinin hökm verəcəyi taxt
eyvanını, yə’ni məhkəmə otağını tikdi və onu
döşəmədən tavana qədər sidr ağacı ilə örtdü.
8 Onun yaşadığı ev eyvanın arxasında, o biri
həyətdə idi və eyni quruluşda tikilmişdi.
Süleyman arvad aldığı fir’on qızı üçün də bu
eyvan kimi bir ev tikdirdi.

9 Bütün bunlar iç və bayır tərəfdən,
bünövrədən dama və bayır tərəfdən böyük
həyətə qədər ölçüyə görə yonulmuş, daş
mişarı ilə kəsilmiş dəyərli daşlardan
düzəldilmişdi. 10 Bünövrə böyük və dəyərli
daşlardan – on qulaclıq və səkkiz qulaclıq
daşlardan qoyulmuşdu. 11 Onların üstündə
ölçüyə görə yonulmuş dəyərli daşlar və sidr
dirəklər var idi. 12 Rəbbin mə’bədinin içəri
həyəti və mə’bədin eyvanı kimi böyük həyət
də üç cərgə yonulmuş daş və bir cərgə sidr
dirəklərlə əhatə olunmuşdu.

### *Xiramın mə’bəd üçün tunc şeylər düzəltməsi*

*(2Saln. 3:15-5:1)*

13 Padşah Süleyman Xiram adlı bir nəfəri
Surdan gətirtdi. 14 Onun anası Naftali
qəbiləsindən dul bir qadın, atası isə Surlu bir
misgər idi. Xiram tuncdan hər cür şey
qayırmaq işində hikmətli, dərrakəli və bilikli
idi. O, padşah Süleymanın yanına gəldi və
onun bütün işlərini gördü.

***6:22*** *– Çıx. 30:1-3*
***6:23-28*** *– Çıx. 25:18-20*

***7:8*** *– 1Pad. 3:1*

[15] Xiram iki tunc sütun düzəltdi. Hər
sütunun hündürlüyü on səkkiz qulac idi və hər
birinin ətrafına on iki qulaclıq bir ip
dolanmışdı. [16] O, sütunların üstünə qoymaq
üçün tökmə tuncdan iki başlıq düzəltdi. Hər
iki başlığın hündürlüyü beş qulac idi.
[17] Sütunların üstündə olan başlıqlarda hörmə
torlar və zəncirvari çələnglər var idi. Hər iki
başlıqda yeddi dənə var idi. [18] O, sütunları
belə düzəltdi. Sütunların üstündəki başlıqları
örtmək üçün hörmə torların ətrafında iki cərgə
nar düzəltdi və hər başlıq üçün də belə etdi.
[19] Eyvanda olan sütunların üstündəki başlıqlar
su zanbağı şəklində düzəldilmişdi və hər
birinin hündürlüyü dörd qulac idi. [20] Hər iki
sütunun yuxarısında olan başlıqlar hörmə
torların yanındakı girdə çıxıntının üst
tərəfində idi. Hər başlığın üzərində dairəvi
cərgələrdə iki yüz nar var idi. [21] Xiram
mə'bədin eyvanında sütunlar qoydu. Sağ
tərəfdə olan sütunu Yakin,[2] sol tərəfdəkini isə
Boaz[3] adlandırdı. [22] Sütunların üstündəki
başlıqlar su zanbağı şəklində idi. Beləcə
sütunların işi qurtardı.

[23] Xiram tuncdan tökülmüş dairəvi bir
hovuz düzəltdi. Onun hündürlüyü beş qulac
idi və bir kənarından digər kənarına qədər on
qulac idi, otuz qulaclıq bir ip də onun ətrafına
dolanmışdı. [24] Hər tərəfdən kənarının altından
onu balqabaq təsvirləri əhatə edirdi. Hər
qulacda on balqabaq var idi. Balqabaqlar iki
cərgə idi və onlar hovuzla birgə tökülmüşdü.
[25] Hovuz on iki tökmə buğanın üstündə
dururdu: üçü şimala, üçü qərbə, üçü cənuba,
üçü də şərqə baxırdı. Hovuz yuxarıda –
onların üzərində idi və buğaların bütün
sağrıları içəriyə doğru idi. [26] Hovuzun
qalınlığı bir ovuc idi, onun kənarı kasa kənarı
kimi düzəldilmişdi və açılan zanbağa
bənzəyirdi. O, iki min bat su tuturdu.

[27] Xiram tuncdan on dayaq düzəltdi. Hər
dayağın uzunluğu dörd, eni dörd və
hündürlüyü üç qulac idi. [28] Dayaqlar belə
hazırlanmışdı: onların yan lövhələri var idi və
yan lövhələr gövdəyə bərkidilmişdi.
[29] Gövdənin arasında olan yan lövhələr
üzərində şir, buğa və keruv təsvirləri var idi.
Həmçinin gövdədə, şir və buğa təsvirlərinin
yuxarısında və aşağısında asma çələnglər var
idi. [30] Hər dayağın dörd tunc çarxı, tunc oxları
və ləyən üçün dörd tökmə çıxıntısı var idi.
Çıxıntılar hər tərəfdən çələnglərlə
bəzədilmişdi. [31] Dayağın başlığında bir oyuq
var idi. Başlığın hündürlüyü bir qulac idi,
oyuq isə dəyirmi və bir qulac yarım enində idi,
üstündə oymalar var idi. Yan lövhələr dairəvi
deyil, dördguşəli idi. [32] Dörd çarx yan
lövhələrin altında idi və çarxların oxları
dayaqda idi. Bir çarxın hündürlüyü bir qulac
yarım idi. [33] Çarxların quruluşu döyüş
arabalarının çarxlarının quruluşu kimi idi.
Onların oxları, sağanaqları, milləri və topları
– hər şeyi tökmə idi. [34] Hər dayağın dörd
küncündə çıxıntı var idi. Çıxıntılar dayağa
bitişik idi. [35] Dayağın başında yarım qulac
hündürlüyündə dəyirmi bir çənbər var idi.
Dayağın başında olan dəstəkləri və yan
lövhələri özünə bitişik idi. [36] Xiram
dəstəklərin və yan lövhələrin üzərində yer
çatan qədər keruv, şir, xurma ağacı təsvirləri,
ətrafında isə çələnglər oydu. [37] Beləcə on
dayaq düzəltdi. Onların hamısı bir tökmədə,
bir ölçüdə və bir quruluşda idi.

[38] Xiram on dayağın üstünə qoymaq üçün
tuncdan on ləyən düzəltdi. Hər ləyən qırx bat
tuturdu və dörd qulac enində idi. [39] Dayaqların
beşini mə'bədin sağ tərəfində, beşini də
mə'bədin sol tərəfində qoydu. Hovuzu isə
mə'bədin cənub-şərq küncündə yerləşdirdi.

[40] O həmçinin qazanlar, kürəklər, piyalələr
düzəltdi. Xiram Rəbbin mə'bədi üçün padşah
Süleymanın əmri ilə bütün bu işləri görüb
qurtardı:

[41] iki sütun;
sütunların üstündə iki dəyirmi başlıq;
sütunların üstündəki başlıqları örtmək
üçün iki hörmə tor;
[42] sütunların üstündə olan dəyirmi
başlıqları örtən hər hörmə torun
üzərində iki cərgədə dörd yüz nar;
[43] on dayaq;
dayaqların üzərində on ləyən;
[44] bir hovuz;
hovuzun altında on iki tökmə buğa;
[45] qazanlar, kürəklər və piyalələr.

Bütün bu əşyaları Xiram Rəbbin mə'bədi
üçün padşah Süleymanın əmri ilə cilalanmış
tuncdan düzəltmişdi. [46] Padşah bunları İordan
çayının kənarındakı düzənlikdə Sukkot ilə

---

[2] **7:21** *Yakin* – ibrani dilində *möhkəm.*
[3] **7:21** *Boaz* – ibrani dilində *güclü.*

***7:38** – Çıx. 30:17-21*

Sartan arasındakı gilli torpaqlarda tökmüşdü.
[47] Bütün bu əşyalar həddən artıq çox olduğu
üçün Süleyman onlara işlədilən tuncun
çəkisini müəyyən etmədi.
[48] Süleyman Rəbbin mə'bədindəki bütün bu
əşyaları düzəltdi:
qızıl qurbangah;
təqdis çörəkləri qoyulan qızıl masa;
[49] iç otağın önündə beşi sağ tərəfdə, beşi
də sol tərəfdə olan xalis qızıldan
çıraqdanlar;
qızıldan olan qönçə, çıraqlar və maşalar;
[50] xalis qızıldan kasalar, maqqaşlar,
piyalələr, nimçələr və buxurdanlar;
iç otağın, yə'ni Ən Müqəddəs yerin və
böyük otağın qapıları üçün qızıldan
ilgəklər.
[51] Padşah Süleymanın Rəbbin mə'bədində
gördüyü bütün işlər qurtardı. Atası Davudun
təqdis etdiyi qızıl-gümüşü və əşyaları
Süleyman içəri gətirib Rəbbin mə'bədinin
xəzinələrinə qoydu.

### *Əhd sandığının mə'bədə gətirilməsi*

*(2Saln. 5:2-6:2)*

8 [1] O zaman padşah Süleyman İsrailin
ağsaqqallarını, bütün qəbilə başçılarını,
yə'ni İsrail övladlarının nəsil rəhbərlərini
Yerusəlimə, özünün yanına topladı ki, Rəbbin
Əhd sandığını Davudun şəhəri olan Siondan
yuxarı gətirsinlər. [2] Yeddinci – Etanim ayında
olan bayram vaxtı bütün İsrail xalqı padşah
Süleymanın yanına toplandı. [3] Bütün İsrail
ağsaqqalları gələndə kahinlər Rəbbin
sandığını götürdülər. [4] Onunla birgə Hüzur
çadırını və çadırda olan bütün müqəddəs
əşyaları kahinlər və Levililər yuxarı gətirdilər.
[5] Padşah Süleyman və onun yanına toplanmış
bütün İsrail icması sandığın önündə
çoxluğuna görə sayı-hesabı bilinməyən qədər
qoyun-keçi və mal-qara qurban kəsirdilər.
[6] Kahinlər Rəbbin Əhd sandığını öz yerinə
mə'bədin iç otağına – Ən Müqəddəs yerə,
keruvların qanadları altındakı yerinə gətirdilər.
[7] Keruvlar qanadlarını sandığın yeri üzərində
açmışdı, onlar sandığı və onun şüvüllərini
örtmüşdü. [8] Şüvüllər elə uzun idi ki, onların
ucu iç otağın önündəki Müqəddəs yerdən
görünürdü, ancaq bayır tərəfdən görünmürdü.
Onlar bu günə qədər oradadır. [9] İsrail övladları
Misir torpağından çıxdıqları zaman Rəbbin
onlarla əhd bağladığı Xorevdə Musa sandığın
içinə iki daş lövhə qoymuşdu. Bunlardan
başqa, sandığın içində heç bir şey yox idi.
[10] Kahinlər Müqəddəs yerdən çıxdıqları
vaxt bulud Rəbbin mə'bədini elə doldurdu ki,
[11] onlar buluda görə ibadət etmək üçün orada
dayana bilmədilər. Çünki Rəbbin izzəti Onun
mə'bədini doldurmuşdu. [12] O zaman
Süleyman dedi: «Rəbb istədi ki, qatı
qaranlıqda məskən salsın. [13] Mən Sənin üçün
uca bir mə'bəd tikdim ki, Sənin əbədi
yaşayacağın yer olsun».

### *Süleymanın xalqa müraciəti*

*(2Saln. 6:3-11)*

[14] Padşah dönüb İsrail camaatına xeyir-dua
verdi. Bu zaman bütün İsrail camaatı ayaq
üstə durmuşdu. [15] Padşah dedi: «İsrailin Allahı
Rəbbə alqış olsun ki, atam Davuda Öz ağzı ilə
dediyini Öz əli ilə yerinə yetirdi. O
söyləmişdi: [16] "Mən xalqım İsraili Misirdən
çıxardığım gündən bəri bir mə'bəd tikmək
üçün İsrailin heç bir qəbiləsindən şəhər
seçməmişdim ki, adım üstündə olsun, ancaq
xalqım İsrailin üzərində olmaq üçün Davudu
seçdim". [17] Atam Davudun ürəyində İsrailin
Allahı Rəbbin adına bir mə'bəd tikmək istəyi
var idi. [18] Lakin Rəbb atam Davuda dedi: "Sən
yaxşı eləmisən ki, Mənim adıma bir mə'bəd
tikmək niyyətinə düşmüsən. [19] Ancaq mə'bədi
sən tikməyəcəksən, sənin belindən gələn
oğlun Mənim adıma mə'bəd tikəcək". [20] Rəbb
və'd etdiyini yerinə yetirdi: belə ki mən atam
Davudun yerinə qalxdım, Rəbbin dediyi kimi
İsrail taxtında oturdum və İsrailin Allahı
Rəbbin adına mə'bəd tikdim. [21] Orada sandıq
üçün yer hazırladım. Atalarımızı Misir
torpağından çıxardığı vaxt Rəbbin onlarla
bağladığı əhd onun içindədir».

### *Mə'bədin təqdisi üçün Süleymanın duası*

*(2Saln. 6:12-42)*

[22] Süleyman Rəbbin qurbangahı önündə,
bütün İsrail camaatının qarşısında durdu və

***7:48*** *– Çıx. 30:1-3*
***7:48*** *– Çıx. 25:23-30*
***7:49*** *– Çıx. 25:31-40*
***7:51*** *– 2Şam. 8:11; 1Saln. 18:11*
***8:1*** *– 2Şam. 6:12-16; 1Saln. 15:25-29*
***8:9*** *– Qanun. 10:5*
***8:10-11*** *– Çıx. 40:34-35*
***8:16*** *– 2Şam. 7:4-11; 1Saln. 17:3-10*
***8:17-18*** *– 2Şam. 7:1-3; 1Saln. 17:1-2*
***8:19*** *– 2Şam. 7:12-13; 1Saln. 17:11-12*

əllərini göyə açıb dedi: [23] «Ya Rəbb, İsrailin
Allahı! Nə yuxarıda göydə, nə də aşağıda
yerdə Sənin kimi Allah yoxdur. Sən bütün
ürəkləri ilə yolunla gedən qullarına əhdini və
lütfünü saxlayırsan. [24] Sən qulun atam Davuda
verdiyin və'də əməl etdin, Öz dilinlə
söylədiyini bu gün Öz əlinlə yerinə yetirdin.
[25] Ya Rəbb, İsrailin Allahı, indi də qulun atam
Davuda dediyin sözə əməl et, Özün
söyləmişdin: "Sən yolumla getdiyin kimi
oğulların da yolumla gedərək öz əməllərinə
diqqət etsələr, İsrail taxtında sənin nəslindən
bir kişi əskik olmayacaq". [26] Ey İsrailin Allahı,
indi qulun atam Davuda dediyin sözü təsdiq
et!

[27] Lakin, doğrudan da, Allah yerdə
yaşayarmı? Sən göyə və göylərin göyünə
sığmazsan, o ki qaldı mənim tikdiyim
mə'bədə! [28] Ancaq Sən bu qulunun duasına və
yalvarışına nəzər sal, ya Rəbb Allahım, bu
gün onun önündə etdiyi fəryadı və duanı eşit.
[29] Qoy Sənin nəzərin gecə-gündüz bu
mə'bədin üstündə olsun. Bu yer barədə Sən
demisən: "Mənim adım orada olacaq".
Qulunun buraya üz tutub etdiyi duanı eşit.
[30] Bu yerə tərəf dua etdikləri vaxt Öz qulunun
və xalqın İsrailin yalvarışlarını Sən eşit,
göylərdə olan məskənində eşit və bağışla!

[31] Əgər bir adam öz yaxınına qarşı günah
edərsə və ondan and içmək tələb olunarsa, o
da gəlib bu mə'bəddə, Sənin qurbangahın
önündə and içərsə, [32] o vaxt Sən göydə eşit və
belə et, qulların üzərində hökm et: əməlini öz
başına döndərərək müqəssiri ittiham et və
təqsirsizə salehliyinə görə bəraət ver.

[33] Əgər xalqın İsrail Sənə qarşı günah etdiyi
üçün düşmən önündə məğlub olsa, onlar
təkrar Sənə tərəf dönüb adını dillərinə
gətirsələr və bu mə'bəddə Sənə yalvarıb
fəryad etsələr, [34] o vaxt Sən göydə eşit və
xalqın İsrailin günahını bağışla, onları yenə
atalarına verdiyin torpağa qaytar.

[35] Əgər xalqın Sənin önündə günah etdiyi
üçün göy bağlanıb yağış yağmayan vaxt bu
yerə tərəf dua edərək adını dillərinə gətirsələr
və Sən onlara bəla göndərdiyin vaxt öz
günahlarından dönsələr, [36] o vaxt Sən göydə
eşit, qullarının və xalqın İsrailin günahını
bağışla və gedəcəkləri doğru yolu onlara
göstər. Xalqına irs kimi verdiyin torpağına da
yağış göndər.

[37] Əgər ölkədə aclıq, vəba olarsa, səmum
küləyi ya kif, çəyirtkə ya bitki qurdu olarsa,
əgər düşmən onları ölkənin hər hansı bir
şəhərində mühasirəyə alarsa – hansı bəla,
hansı xəstəlik olursa-olsun – [38] kimsə
tərəfindən yaxud da bütün xalqın İsrail
tərəfindən bir dua və yalvarış olarsa, hər kəs
öz ürəyinin dərdini bilib bu mə'bədə tərəf
əllərini açsa, [39] o vaxt Sən göydə – Öz
məskənində eşit, bağışla və bir əlac et.
Ürəyini bildiyin hər adama bütün əməllərinə
görə əvəz ver, çünki hər insanın ürəyini yalnız
Sən bilirsən. [40] Ta ki onlar atalarımıza
verdiyin torpaqda yaşadıqları bütün günlər
boyu Səndən qorxsunlar.

[41] Əgər xalqın İsraildən olmayan yadelli də
Sənin adın naminə uzaq ölkədən gəlsə,
[42] Sənin böyük adın, qüdrətli əlin və uzanan
qolun barədə eşidib bu mə'bədə tərəf dua etsə,
[43] o vaxt Sən göydə – Öz məskənində eşit və
yadellinin Sənə fəryad etdiyi hər şeyi elə ki,
yer üzünün bütün xalqları da Sənin adını
tanısınlar, xalqın İsrail kimi Səndən
qorxsunlar və tikdiyim bu mə'bədin Sənin
adınla çağırıldığını bilsinlər.

[44] Əgər xalqın göndərdiyin yolla düşməninə
qarşı müharibəyə çıxsa və Sənin seçdiyin
şəhərə tərəf, Sənin adına tikdiyim mə'bədə
doğru üz çevirib Rəbbə dua etsə, [45] Sən göydə
onların dua və yalvarışlarını eşit, onların
tərəfində ol.

[46] Əgər onlar önündə günah etsələr – çünki
günah etməyən insan yoxdur – Sən
qəzəblənib onları düşmənə təslim etsən və
düşmən onları əsir edib yaxın ya uzaq
torpağına aparsa, [47] onlar əsirlikdə olduqları
ölkədə ürəklərini döndərib tövbə etsələr və
Sənə dua edərək "biz günah və haqsızlıq etdik,
pislik etdik" desələr, [48] onları əsir edən
düşmənlərin ölkəsində bütün ürəkləri və
canları ilə Sənə tərəf dönsələr, atalarına
verdiyin torpağa, seçdiyin şəhərə və adına
tikdiyim mə'bədə tərəf üz tutub Sənə dua
etsələr, [49] o vaxt Sən göydə – Öz məskənində
onların dua və yalvarışlarını eşit, onların
tərəfində ol. [50] Sənin önündə günah edən
xalqını və onun Sənə qarşı etdiyi bütün
asilikləri bağışla və onları əsir alanlara insaf
ver ki, onlara qarşı rəhmli olsunlar. [51] Çünki

---

***8:25*** – *1Pad. 2:4*
***8:27*** – *2Saln. 2:6*
***8:29*** – *Qanun. 12:11*

onlar Sənin xalqın, Sənin irsindir, Sən onları
Misirdən, dəmir kürənin içindən çıxartmısan.
52 Bu qulunun və xalqın İsrailin yalvarışına
nəzər yetir ki, onların Sənə fəryad etdikləri
hər sözü eşidəsən. 53 Çünki, ya Xudavənd
Rəbb, Sən irsin olmaq üçün onları yer üzünün
bütün xalqlarından ayırdın. Bunu atalarımızı
Misirdən çıxartdığın vaxt qulun Musa
vasitəsilə söyləmişdin».

### *Süleymanın xalqa xeyir-dua verməsi*

54 Süleyman bütün bu dua və yalvarışlarını
Rəbbə söyləyib qurtarandan sonra Rəbbin
qurbangahı önündən, əlləri göyə açıq halda
diz çökdüyü yerdən qalxdı. 55 O ayağa durdu
və bütün İsrail camaatına uca səslə xeyir-dua
verib dedi: 56 «Rəbbə alqış olsun ki, və'd
etdiyi kimi xalqı İsrailə dinclik verdi! Öz qulu
Musanın vasitəsilə verdiyi yaxşı və'dlərindən
heç biri hədər getmədi. 57 Qoy Allahımız Rəbb
atalarımıza yar olduğu kimi bizə də yar olsun,
qoy bizi buraxmasın və tərk etməsin. 58 Bizim
ürəklərimizi Özünə tərəf yönəltsin ki, Onun
yolu ilə gedək və Onun atalarımıza
buyurduğu əmrlərinə, qanunlarına və
hökmlərinə əməl edək. 59 Qoy Rəbbin önündə
bu yalvarış sözlərim gecə-gündüz Rəbb
Allahımızın xatirində olsun, Öz qulunun və
xalqı İsrailin yaxşılığı üçün günbəgün çalışsın.
60 Ta ki yer üzünün bütün xalqları bilsin:
yalnız Rəbb Allahdır, Ondan başqası yoxdur.
61 Qoy sizin ürəyiniz bütünlüklə Allahımız
Rəbbə sadiq olsun ki, bu gün olduğu kimi
Onun qanunları ilə gedəsiniz və Onun
əmrlərinə əməl edəsiniz».

### *Mə'bədin təqdis edilməsi*

*(2Saln. 7:4-10)*

62 Padşah və onunla birgə bütün İsraillilər
Rəbbin önündə qurbanlar kəsdilər.
63 Süleymanın Rəbbə təqdim etdiyi ünsiyyət
qurbanlarının sayı iyirmi iki min baş mal-qara
və yüz iyirmi min baş qoyun-keçi idi.
Beləliklə, padşah və bütün İsrail övladları
Rəbbin mə'bədini təqdis etdilər. 64 Həmin gün
padşah Rəbbin mə'bədi önündəki həyətin
ortasını təqdis etdi ki, yandırma qurbanlarını,
taxıl təqdimlərini və ünsiyyət qurbanlarının
piyini orada təqdim etsin, çünki Rəbbin
önündəki tunc qurbangah kiçik olduğu üçün
yandırma qurbanları, taxıl təqdimləri və
ünsiyyət qurbanlarının piyi oraya yerləşməzdi.

---

***8:56*** *– Qanun. 12:10; Yeşua 21:44-45*

65 O vaxt Süleyman və onunla birgə böyük
bir camaat – Xamat keçidindən Misir vadisinə
qədər yaşayan bütün İsraillilər Allahımız
Rəbbin önündə yeddi gün və daha yeddi gün
– on dörd gün bayram etdilər. 66 Səkkizinci
gün Süleyman xalqı buraxdı. Onlar padşaha
xeyir-dua verib Rəbbin qulu Davuda və xalqı
İsrailə etdiyi bütün yaxşılıqlara görə sevinclə
və şad ürəklə öz evlərinə getdilər.

### *Rəbbin yenə Süleymana görünməsi*

*(2Saln. 7:11-22)*

9 1 Süleyman Rəbbin mə'bədini, padşah
sarayını və tikmək istədiyi bütün şeyləri
tamamlayıb qurtarandan sonra 2 Rəbb
Giveonda göründüyü kimi ikinci dəfə ona
göründü. 3 Rəbb Süleymana dedi: «Mən
önümdə etdiyin dua və yalvarışını eşitdim.
Adımı əbədilik oraya qoymaq üçün tikdiyin
bu mə'bədi təqdis etdim. Mənim nəzərim və
ürəyim daim orada olacaq. 4 Əgər Mənim sənə
əmr etdiklərimi yerinə yetirərək atan Davud
kimi ürək bütövlüyü və salehliklə yolumla
getsən, Mənim qanunlarıma və hökmlərimə
əməl etsən, 5 sənin padşahlıq taxtını İsrail
üzərində əbədi ucaldacağam. Bunu atan
Davuda "İsrail taxtında sənin nəslindən bir
kişi əskik olmayacaq" deyə və'd etmişdim.
6 Ancaq siz və övladlarınız ardımca
getməkdən dönüb qarşınıza qoyduğum
əmrlərimə və qaydalarıma əməl etməsəniz,
gedib başqa allahlara qulluq edərək onlara
səcdə etsəniz, 7 Mən İsraillilər onlara
verdiyim torpaqdan silib atacağam və Öz
adıma təqdis etdiyim bu mə'bədi hüzurumdan
rədd edəcəyəm. Onda İsrail barədə bütün
xalqlar arasında məsəl və kinayə söyləniləcək.
8 Bu mə'bədin qalaqları elə uca olacaq ki,
yanından keçən hər kəs dəhşətə gələrək
deyəcək: "Nə üçün Rəbb bu torpağı və bu
mə'bədi bu cür rədd etdi?" 9 Onlara
deyəcəklər: "Ona görə ki bu xalq atalarını
Misir torpağından çıxaran özlərinin Allahı
Rəbbi tərk etdi və başqa allahlardan yapışdı,
onlara səcdə və qulluq etdi. Buna görə də
Rəbb bütün bu bəlanı onların üzərinə
göndərdi"».

---

***9:2*** *– 1Pad. 3:5; 2Saln. 1:7*
***9:5*** *– 1Pad. 2:4*

### *Süleymanın Xiramla müqavilə bağlaması*
*(2Saln. 8:1-2)*

10 Süleyman iki evi – Rəbbin mə'bədini və
padşah sarayını iyirmi ilə tikib qurtardıqdan
sonra 11 Sur padşahı Xirama Qalileya
diyarında iyirmi şəhər verdi, çünki Xiram
Süleymana onun arzusuna görə sidr, şam
ağacları və qızıl göndərmişdi. 12 Xiram Surdan
çıxdı ki, Süleymanın ona verdiyi şəhərlərə
baxsın. Onlar Xiramın xoşuna gəlmədi. 13 O
dedi: «Qardaşım, bu nə şəhərlərdir, mənə
vermisən?» Onları Kavul[4] torpağı adlandırdı
və bu günə qədər onlar belə adlanır. 14 Xiram
padşaha yüz iyirmi talant qızıl göndərdi.

### *Süleymanın tikinti işləri*
*(2Saln. 8:3-18)*

15 Padşah Süleyman əmək mükəlləfiyyəti
qoyub bu işləri gördü: Rəbbin mə'bədini, öz
sarayını, qala yamacını, Yerusəlim divarını,
Xasoru, Megiddonu və Gezeri tikdi. 16 Misir
padşahı fir'on gəlib Gezeri tutmuşdu və oranı
yandırmışdı. Şəhərdə yaşayan Kən'anlıları
qırmışdı və bu şəhəri öz qızına – Süleymanın
arvadına cehiz vermişdi. 17 Süleyman yenidən
Gezeri tikdi. O həmçinin Aşağı Bet-Xoronu,
18 Baalatı, ölkədəki səhralıqda olan Tadmoru,
19 özünün bütün anbar şəhərlərini, döyüş
arabalarının olduğu şəhərləri, süvarilərin
olduğu şəhərləri, Yerusəlimdə, Livanda və
onun hökmranlığı altında olan bütün yerlərdə
tikmək istədiyi hər şeyi tikdi. 20 Ölkədə İsrail
övladlarından olmayan başqa xalqlar –
Emorlular, Xetlilər, Perizlilər, Xivlilər və
Yevuslular qalmışdı, 21 çünki İsraillilər onların
atalarını tamamilə məhv edə bilməmişdilər.
Süleyman onları mükəlləfiyyətçi qul etdi və
bu indiyə qədər belədir. 22 İsrail övladlarını isə
qul etmədi, ancaq onlar Süleymanın əsgərləri,
ə'yanları, rəisləri və sərkərdələri, döyüş
arabalarının və süvarilərinin başçıları idi.
23 Süleymanın işlərinə nəzarət edən rəislər də
İsraillilərdən idi. İş görən xalqa rəislik edən
bu adamlar beş yüz əlli nəfər idi.

24 Fir'onun qızı Davudun şəhərindən
Süleymanın onun üçün tikdiyi evinə köçdü.
Sonra Süleyman qala yamacını tikdi.

25 Süleyman Rəbbə tikdiyi qurbangahın
üzərində ildə üç dəfə yandırma qurbanları və
ünsiyyət qurbanları gətirirdi, bununla bərabər
Rəbbin önündə buxur yandırırdı. Beləcə o,
mə'bədin işini görürdü.

### *Süleymanın donanması*

26 Padşah Süleyman həmçinin Edom
ölkəsində, Qırmızı dənizin körfəzində, Elatın
yanında olan Esyon-Gever limanında
donanma düzəltdi. 27 Xiram öz təbəəsi olan
dənizə bələd gəmiçiləri Süleymanın adamları
ilə birgə donanmaya göndərdi. 28 Onlar Ofirə
gəldilər və oradan dörd yüz iyirmi talant qızıl
götürüb padşah Süleymana gətirdilər.

### *Səba mələkəsinin Süleymanın yanına gəlməsi*
*(2Saln. 9:1-12)*

10 1 Səba mələkəsi Rəbbin adından
ötrü, Süleymanın şöhrətini eşidib onu
tapmacalarla sınamağa gəldi. 2 O, çox böyük
karvanla – ətriyyat, çoxlu qızıl və qiymətli
daşlarla yüklənmiş dəvələrlə Yerusəlimə,
Süleymanın yanına gəldi və ürəyində olan hər
şey barədə onunla söhbət etdi. 3 Süleyman
onun bütün suallarına cavab verdi, elə bir
gizli şey olmadı ki, padşah ona izah etməsin.
4 Səba mələkəsi Süleymanın bütün hikmətini
və onun tikdiyi sarayı, 5 süfrəsindəki yeməyi,
ə'yanlarının oturuşunu, qulluqçularının
xidmətini və onların geyimlərini, saqilərini,
Rəbbin mə'bədində gətirdiyi yandırma
qurbanlarını görəndə daha özünü saxlaya
bilmədi. 6 O, padşaha dedi: «Sənin işlərin və
hikmətin barədə öz ölkəmdə eşitdiyim sözlər
düz imiş. 7 Gəlib öz gözlərimlə görənə qədər
mən bu sözlərə inanmamışdım. Mənə heç
gördüklərimin yarısı danışılmayıb, sənin
hikmətin və var-dövlətin mən eşitdiyim
şöhrətdən üstündür. 8 Sənin adamların və
qulluqçuların nə bəxtiyardır ki, həmişə
önündə durub hikmətini eşidirlər. 9 Allahın
Rəbbə alqış olsun ki, səni istəyib İsrail
taxtında oturtdu! Rəbb İsrailə olan əbədi
sevgisi naminə ədalət və salehliklə hökm
etmək üçün səni padşah qoydu». 10 Səba
mələkəsi padşaha yüz iyirmi talant qızıl,
çoxlu ətriyyat və qiymətli daşlar bağışladı.
Onun padşah Süleymana verdiyi qədər çox
ətriyyat hələ heç vaxt gəlməmişdi.

11 Ofirdən qızıl gətirən Xiramın gəmiləri
oradan çoxlu ardıc ağacı və qiymətli daşlar
gətirdilər. 12 Padşah ardıc ağacından Rəbbin

---

[4] **9:13** *Kavul* – ibrani dilində *heç nə.*
***9:25*** – *Çıx. 23:17; 34:23; Qanun. 16:16*

***10:1-13*** – *Mat. 12:42; Luk. 11:31*

mə'bədi və padşah sarayı üçün sürahi,
musiqiçilər üçün lira və çəng düzəltdi. Heç
vaxt bu qədər ardıc ağacı gəlməmişdi və bu
günə qədər görünməmişdi. 13 Padşah
Süleymanın öz səxavətinə görə Səba
mələkəsinə verdiklərindən başqa, padşah
onun arzuladığı və istədiyi bütün şeyləri verdi.
O da adamları ilə birgə qayıdıb öz ölkəsinə
getdi.

### *Padşah Süleymanın var-dövləti*

*(2Saln. 9:13-28)*

14 Bir ildə Süleymana gələn qızılın çəkisi
altı yüz altmış altı talant idi. 15 Alver edən
adamlardan, tacirlərin ticarətindən, bütün
Ərəb padşahlarından və ölkənin valilərindən
gələn qızıl buraya daxil deyildi. 16 Padşah
Süleyman döymə qızıldan iki yüz sipər
düzəltdi. Bir sipərə altı yüz şekel qızıl işləndi.
17 O, döymə qızıldan üç yüz qalxan da
düzəltdi. Bir qalxana üç mina qızıl işləndi.
Padşah onları «Livan meşəsi» adlı sarayına
qoydu.

18 Padşah fil sümüyündən böyük taxt
düzəltdi və onu xalis qızılla örtdü. 19 Taxtın
altı pilləsi var idi. Arxa tərəfdən taxtın başı
dəyirmi idi. Oturacağın hər iki tərəfində qollar
var idi, qolların yanında iki şir təsviri var idi.
20 Altı pillənin iki tərəfində isə on iki şir
təsviri var idi. Heç bir padşahlıqda belə şey
yox idi. 21 Padşah Süleymanın bütün içki
qabları qızıldan idi, «Livan meşəsi» adlı
sarayında olan bütün əşyalar da xalis qızıldan
idi. Gümüşdən heç bir şey yox idi, çünki
gümüş Süleymanın dövründə heç nə sayılırdı.
22 Padşahın dənizdə Xiramın gəmiləri ilə birgə
Tarşiş gəmiləri[5] var idi. Üç ildə bir dəfə
Tarşiş gəmiləri qızıl, gümüş, fil sümüyü,
meymunlar və əntərlərlə yüklənərək gəlirdi.

23 Padşah Süleyman var-dövlətdə və
hikmətdə yer üzünün bütün padşahlarından
üstün idi. 24 Süleymanın ürəyinə Allahın
qoyduğu hikməti eşitmək üçün hamı onun
üzünü görmək istəyirdi. 25 Onun yanına gələn
hər kəs hədiyyə gətirirdi. Beləcə ona hər il
qızıl və gümüş qablar, paltarlar, silahlar,
ətriyyat, atlar və qatırlar gətirilirdi.

26 Süleyman döyüş arabaları və süvarilər
topladı. Onun min dörd yüz döyüş arabası və
on iki min süvarisi var idi. Onları arabalar
üçün ayrılan şəhərlərdə və Yerusəlimdə,
padşahın yanında yerləşdirdi. 27 Padşah
Yerusəlimdə çoxluğuna görə gümüşü daşlara,
sidr ağacını isə yamaclı-düzənlikli bölgədə
bitən fir'on ənciri ağacına bərabər etdi.
28 Süleymanın atları Misirdən və Quvedən
gətirilirdi, padşahın tacirləri onları Quvedən
satın alırdılar. 29 Hər bir döyüş arabası altı yüz
şekel, hər bir at isə yüz əlli şekel gümüşə başa
gəlib, Misirdən gətirilirdi. Bütün Xet və Aram
padşahları da bunları Süleymanın tacirlərinin
vasitəsilə alırdılar.

### *Süleymanın Allahdan uzaqlaşması*

11 1 Padşah Süleyman fir'onun
qızından başqa, Moavlılar,
Ammonlular, Edomlular, Sidonlular və
Xetlilərdən çoxlu yadelli qadın sevdi. 2 Rəbb
İsrail övladlarına bu xalqlar barədə demişdi:
«Onlardan qız almayın və onlara qız
verməyin. Əgər belə etsəniz, hökmən
ürəyinizi öz allahlarına tərəf azdıracaqlar».
Bu qadınlar da həmin xalqlardan idi.
Süleyman sevgi ilə onlara bağlandı. 3 Onun
zadəgan nəslindən olan yeddi yüz arvadı və
üç yüz kənizi var idi. Arvadları onun ürəyini
yoldan çıxartdılar. 4 Onlar Süleymanın qocalıq
çağında onun ürəyini başqa allahlara tərəf
azdırdılar və onun ürəyi, atası Davuddan
fərqli olaraq, Allahı Rəbbə sadiq deyildi.
5 Süleyman Sidonluların ilahəsi Aştoretə və
Ammonluların iyrənc bütü Milkoma xidmət
etdi. 6 Süleyman Rəbbin gözündə pis olan işlər
etdi və atası Davuddan fərqli olaraq, Rəbbə
tamamilə xidmət etmədi. 7 Onda Süleyman
Yerusəlimin şərqindəki dağda Moavın iyrənc
bütü Kemoş üçün və Ammon övladlarının
iyrənc bütü Molek üçün səcdəgah düzəltdi.
8 O öz allahlarına buxur yandıran və qurbanlar
gətirən bütün yadelli arvadları üçün belə etdi.

9 Rəbb Süleymana qəzəbləndi, çünki onun
ürəyi İsrailin Allahı Rəbdən dönmüşdü. Rəbb
ona iki dəfə görünərək 10 «başqa allahlara
xidmət etmə» deyə bu barədə əmr etdi, o isə
Rəbbin əmrinə əməl etmədi. 11 Ona görə də
Rəbb Süleymana dedi: «Bu niyyətdə
olduğuna görə, sənə əmr etdiyim əhdimə və
qaydalarıma əməl etmədiyin üçün Mən

---

[5] **10:22** *Tarşiş gəmiləri* – yaxud *ticarət gəmiləri.*
***10:26*** *– 1Pad. 4:26*

***10:27*** *– Qanun. 17:17*
***10:28*** *– Qanun. 17:16*
***11:1*** *– Qan.Tək. 17:17*
***11:2*** *– Çıx. 34:16; Qanun. 7:3-4*

hökmən padşahlığını əlindən çəkib alacağam
və onu sənin quluna verəcəyəm. [12] Ancaq atan
Davudun xatirinə Mən bunu sənin dövründə
etməyəcəyəm, onu sənin oğlunun əlindən
çəkib alacağam. [13] Həm də bütün padşahlığı
çəkib almayacağam, qulum Davudun xatirinə
və Mənim seçdiyim Yerusəlimdən ötrü bir
qəbiləni sənin oğluna verəcəyəm».

### *Süleymanın düşmənləri*

[14] Rəbb Edomlu Hadadı Süleymana düşmən
etdi. O, Edomun padşah nəslindən idi.
[15] Davud Edomda olarkən ordu başçısı Yoav
ölənləri basdırmaq üçün gəlib Edomda bütün
kişiləri qırmışdı. [16] Yoav bütün İsraillilərlə
birgə Edomda olan bütün kişiləri qırana qədər
altı ay orada qalmışdı. [17] O zaman Hadad və
atasının ə'yanlarından olan bə'zi Edomlular
onunla birgə Misirə tərəf qaçmışdılar. Hadad
balaca bir uşaq idi. [18] Onlar Midyandan qalxıb
Parana gəldilər, Parandan özləri ilə adamlar
götürüb Misirə, Misir padşahı fir'onun yanına
gəldilər. O, Hadada ev və torpaq verdi, onu
azuqə ilə tə'min etdi. [19] Hadad fir'onun
gözündə böyük rəğbət qazandı və fir'on
arvadı mələkə Taxpenesin bacısını ona arvad
olmaq üçün verdi. [20] Taxpenesin bacısı ona
oğlu Genuvatı doğdu. Taxpenes özü fir'onun
evində onu böyütdü. Genuvat fir'onun evində,
fir'onun oğulları arasında idi. [21] Hadad
Misirdə olanda Davudun vəfat etdiyini və
ordu başçısı Yoavın öldüyünü eşidib fir'ona
dedi: «Göndər məni, öz ölkəmə gedim».
[22] Fir'on ona dedi: «Məgər mənim yanımda
bir şeyə ehtiyacın var ki, öz ölkənə getmək
istəyirsən?» O cavab verdi: «Yox, ancaq sən
məni göndər, gedim».

[23] Allah həmçinin ağası Sova padşahı
Hadadezerdən qaçan Elyada oğlu Rezonu
Süleymana düşmən etdi. [24] Davud Sovalıları
qırandan sonra o, yanına adamlar toplayıb bir
quldur dəstəsinin başçısı olmuşdu. Bu
adamlar Dəməşqə gedib orada qalmışdılar və
Dəməşqdə hökmranlıq edirdilər. [25] O,
Süleymanın bütün ömrü boyu İsrailə düşmən
idi. Hadadın etdiyi pisliklərlə birgə o da
həmişə İsraillilərə pislik edirdi və kin
bəsləyirdi. Aramda o, padşahlıq edirdi.

### *Yarovamın padşah olacağı barədə peyğəmbərlik*

[26] Süleymanın təbəələrindən biri –
Seredadan olan Efrayimli Nevat oğlu
Yarovam da padşaha qarşı çıxmışdı. Onun dul
bir qadın olan anasının adı Serua idi.
[27] Yarovamın padşaha qarşı çıxmasının səbəbi
bu idi: Süleyman qala yamacını tikdi və atası
Davudun şəhərinin divarındakı yarığı bərpa
edirdi. [28] Yarovam bacarıqlı adam idi.
Süleyman cavan oğlanın iş bacarığını gördü
və onu Yusifin nəslindən olan ağır işdə
işləyən adamların üzərində rəis qoydu.

[29] O zaman günlərin birində Yarovam
Yerusəlimdən çıxdı və yolda Şilolu
peyğəmbər Axiya onu qarşıladı. Axiya təzə
paltar geymişdi. Çöldə yalnız onlar ikisi idi.
[30] Axiya əynində olan təzə paltarı götürüb on
iki yerə cırdı. [31] Sonra Yarovama dedi:
«Özünə on hissə götür, çünki İsrailin Allahı
Rəbb belə deyir: "Mən padşahlığı Süleymanın
əlindən çəkib alıram və on qəbiləni sənə
verirəm. [32] Ancaq qulum Davudun xatirinə və
İsrailin bütün qəbilələrindən seçdiyim şəhər
olan Yerusəlimdən ötrü bir qəbilə onun
olacaq. [33] Bunu ona görə edirəm ki, onlar
Məni tərk etdilər və Sidonluların ilahəsi
Aştoretə, Moav allahı Kemoşa,
Ammonluların allahı Milkoma səcdə etdilər.
Süleymanın atası Davud kimi gözümdə doğru
olan işlər etməklə, qaydalarıma və əmrlərimə
əməl etməklə Mənim yolumla getmədilər.
[34] Bütün padşahlığı onun əlindən çəkib
almayacağam. Əmrlərimə və qaydalarıma
əməl edən seçdiyim qulum Davudun xatirinə
onu bütün ömrü boyu hökmdar edəcəyəm.
[35] Ancaq padşahlığı onun oğlunun əlindən
çəkib alacağam və on qəbiləni sənə
verəcəyəm. [36] Onun oğluna isə bir qəbiləni
verəcəyəm ki, Mənim önümdə, adımı oraya
qoymaq üçün seçdiyim şəhər olan
Yerusəlimdə həmişə qulum Davudun çırağı
olsun. [37] Mən səni seçirəm, sən ürəyin istədiyi
hər şey üzərində hökmranlıq edəcəksən və
İsrailin padşahı olacaqsan. [38] Əgər qulum
Davud kimi Mənim qanunlarıma və
əmrlərimə əməl edərək sənə buyurduğum hər
şeyə qulaq assan, Mənim yolumla getsən və
Mənim gözümdə doğru olan işlər görsən,
onda Mən səninlə olacağam. Davud üçün
qurduğum kimi sənin üçün də möhkəm bir
sülalə quracağam və İsraili sənə verəcəyəm.

---

***11:36** – 1Pad. 15:4,47; 2Pad. 8:19, 2Saln. 21:7; Zəb. 132:17*

39 Mən bundan ötrü Davudun nəslini
alçaldacağam, ancaq həmişəlik yox”».
40 Süleyman Yarovamı öldürmək istədi,
ancaq Yarovam qalxıb Misirə, Misir padşahı
Sisaqın yanına qaçdı və Süleymanın ölümünə
qədər Misirdə qaldı.

### *Süleymanın ölümü*

*(2Saln. 9:29-31)*

41 Süleymanın qalan işləri, etdiyi hər şey və
onun hikməti barədə Süleymanın əməlləri
kitabında yazılmışdır. 42 O, Yerusəlimdə
bütün İsrail üzərində qırx il padşahlıq etmişdi.
43 Süleyman ataları ilə uyudu və atası
Davudun şəhərində basdırıldı. Onun yerinə
oğlu Rexavam padşah oldu.

### *İsraillilərin Rexavama qarşı çıxması*

*(2Saln. 10:1-19)*

12 1 Rexavam Şekemə getdi, çünki
bütün İsraillilər onu padşah etmək
üçün Şekemə gəlmişdilər. 2 Nevat oğlu
Yarovam bunu eşitdiyi zaman hələ Misirdə
idi. Oraya padşah Süleymanın əlindən
qaçmışdı və Misirdə yaşayırdı. 3 Onu
çağırtdırdılar. Yarovam gəldi və İsrailin bütün
camaatı ilə birgə Rexavama söylədi: 4 «Atan
üzərimizə ağır boyunduruq qoydu. Sən isə
indi atanın çətin qulluğunu və üzərimizə
qoyduğu ağır boyunduruğu yüngülləşdir, biz
də sənə qulluq edərik». 5 Rexavam onlara dedi:
«İndi gedin və üç gündən sonra yenə mənim
yanıma gəlin». Xalq getdi.
6 Padşah Rexavam atası Süleymanın
sağlığında onun önündə duran ağsaqqallarla
məsləhət edib dedi: «Bu xalqa cavab vermək
üçün mənə nə məsləhət verirsiniz?»
7 Ağsaqqallar ona dedilər: «Əgər bu gün sən
bu xalqa xidmətçi olsan, onlara qulluq etsən
və onlara cavab verəndə yaxşı sözlər desən,
daim sənə qul olacaqlar». 8 Ancaq o,
ağsaqqalların verdikləri məsləhətə məhəl
qoymadı, onunla birgə böyümüş və onun
önündə duran cavan adamlarla məsləhətləşdi.
9 Onlara dedi: «Siz nə məsləhət verirsiniz?
Mənə “atanın üzərimizə qoyduğu
boyunduruğu yüngülləşdir” deyən bu xalqa nə
cavab verim?» 10 Onunla birgə böyümüş
cavan adamlar ona dedilər: «Sənə “atan
üzərimizə ağır boyunduruq qoydu, sən isə onu
yüngülləşdir” deyən bu xalqa belə söylə:
“Mənim kiçik barmağım atamın belindən
yoğundur. 11 Atam sizi ağır boyunduruqla
yükləmişdi, mən isə sizin boyunduruğunuzu
daha da artıracağam; atam sizi qamçılarla
cəzalandırırdı, mən isə sizi əqrəblərlə
cəzalandıracağam”».
12 «Üç gün sonra yenə yanıma gəlin» deyə
padşahın söylədiyi kimi Yarovam bütün
xalqla birgə üç gün sonra Rexavamın yanına
gəldi. 13 Padşah xalqa sərt cavab verdi,
ağsaqqalların ona verdiyi məsləhətə məhəl
qoymayıb 14 cavan adamların məsləhətinə
görə xalqa dedi: «Atam sizi ağır
boyunduruqla yükləmişdi, mən isə sizin
boyunduruğunuzu daha da artıracağam; atam
sizi qamçılarla cəzalandırırdı, mən isə
əqrəblərlə cəzalandıracağam». 15 Padşah xalqa
qulaq asmadı, çünki bu hadisə Rəbb
tərəfindən oldu ki, O, Şilolu Axiya vasitəsilə
Nevat oğlu Yarovama söylədiyi sözü yerinə
yetirsin.
16 Bütün İsraillilər padşahın onlara qulaq
asmadığını gördülər. Onda xalq ona cavab
verib dedi:

«Davudla bizim nə işimiz var?
Yesseyin oğlunda irsimiz yoxdur!
Ey İsraillilər, gedin evinizə,
Ey Davud, indi öz evinə bax!»

İsraillilər evlərinə getdilər. 17 Rexavam
yalnız Yəhuda şəhərlərində yaşayan İsrail
övladları üzərində padşahlıq etdi. 18 Padşah
Rexavam mükəlləfiyyətçilər üzərində
nəzarətçi olan Adoniramı göndərdi, bütün
İsraillilər onu daşqalaq edib öldürdülər.
Padşah Rexavam Yerusəlimə qaçmaq üçün
tələsik öz döyüş arabasına mindi. 19 Beləcə
İsraillilər Davudun sülaləsinə qarşı qalxdılar
və bu indiyə qədər belədir.
20 Bütün İsraillilər Yarovamın qayıtdığını
eşidəndə onu toplantıya çağırtdırdılar və
bütün İsrail üzərində onu padşah etdilər.
Yəhuda qəbiləsindən başqa, Davud
sülaləsinin arxasınca gedən olmadı.

### *Şemayanın peyğəmbərliyi*

*(2Saln. 11:1-4)*

21 Rexavam Yerusəlimə gəldi. O, İsrail evi
ilə müharibə edib öz padşahlığını qaytarmaq
üçün bütün Yəhuda evini və Binyamin
qəbiləsini – yüz səksən min seçmə döyüşçünü
topladı. 22 Ancaq Allah adamı Şemayaya
Allahın bu sözü nazil oldu: 23 «Yəhuda

---

***12:16*** *– 2Şam. 20:1*

padşahı Süleyman oğlu Rexavama, bütün
Yəhuda və Binyamin evinə, qalan xalqa söylə
ki, 24 Rəbb belə deyir: "Getməyin və öz
soydaşlarınız olan İsrail övladları ilə
müharibə etməyin. Hər kəs öz evinə qayıtsın,
çünki bu iş Mənim tərəfimdən oldu"». Onlar
Rəbbin sözünə qulaq asdılar və Rəbbin
sözünə görə geri qayıtdılar.

### *Yarovamın İsrailə etdirdiyi günah*

25 Yarovam Efrayimin dağlıq bölgəsində
Şekemi tikdi və orada yaşadı. Oradan çıxıb
Penueli tikdi. 26 Yarovam ürəyində dedi:
«Padşahlıq yenə Davud sülaləsinə qayıda
bilər. 27 Əgər bu xalq Yerusəlimə, Rəbbin
mə'bədinə qurban gətirmək üçün gedərsə, bu
xalqın ürəyi ağalarına – Yəhuda padşahı
Rexavama tərəf dönəcək. Onlar məni öldürüb
Yəhuda padşahı Rexavamın tərəfinə
keçəcəklər». 28 Padşah məsləhətləşib iki qızıl
dana[6] düzəltdi və xalqa dedi: «Sizə daha
Yerusəlimə getmək lazım deyil. Ey İsraillilər,
sizi Misir torpağından çıxaran allahlarınız
bunlardır». 29 O, danalardan birini Bet-Eldə, o
birini isə Danda qoydu. 30 Bu iş günah oldu.
Xalq onlardan birinə səcdə etmək üçün Dana
qədər gedirdi.

31 Yarovam səcdəgahlarda ibadət evləri
tikdi və xalqın arasından Levililərdən
olmayan kahinlər tə'yin etdi.

### *Yarovam və Yəhudalı Allah adamı*

32 Yarovam səkkizinci ayın on beşinci günü
Yəhudada keçirilən bayram kimi bir bayram
keçirdi. Bet-Eldə düzəltdiyi danalara qurban
gətirmək üçün qurbangaha qalxdı və tikdiyi
səcdəgahların kahinlərini Bet-Eldə vəzifəyə
qoydu. 33 O öz istəyincə uydurduğu vaxt –
səkkizinci ayın on beşinci günü İsrail
övladları üçün bayram keçirdi və buxur
yandırmaq üçün Bet-Eldə düzəltdiyi
qurbangaha qalxdı.

13 1 Yarovam buxur yandırmaq üçün
qurbangahın yanında durduğu vaxt bir
Allah adamı Rəbbin sözü ilə Yəhudadan Bet-
Elə gəlib 2 Rəbbin adından qurbangaha
müraciətlə dedi: «Qurbangah, ay qurbangah!
Rəbb belə deyir: "Budur, Davudun nəslində
bir oğlan uşağı doğulacaq, onun adı Yoşiya
olacaq. O sənin üstündə, orada buxur
yandıran səcdəgahların kahinlərini qurban
edib insan sümükləri yandıracaq"». 3 Allah
adamı həmin gün bir əlamət verib dedi:
«Rəbbin söylədiyi əlamət budur: "Bu
qurbangah bölünəcək və üstündəki kül
töküləcək"». 4 Padşah Yarovam Allah
adamının Bet-Eldə qurbangaha müraciətlə
dediyi sözü eşidəndə qurbangahın üzərindən
əlini uzadıb «onu tutun» dedi. Onun Allah
adamına qarşı uzatdığı əli qurudu və əlini
özünə tərəf döndərə bilmədi. 5 Allah adamının
Rəbbin sözü ilə verdiyi əlamətə görə
qurbangah bölündü və kül qurbangahdan
töküldü.

6 Onda padşah Allah adamına dedi:
«Allahın Rəbbi rəhmə gətir və mənim üçün
dua et ki, əlimi özümə tərəf döndərə bilim».
Allah adamı Rəbbi rəhmə gətirdi və padşahın
əli özünə tərəf dönüb əvvəlki kimi oldu.
7 Padşah Allah adamına dedi: «Mənimlə birgə
evə gedib nahar edək. Mən sənə hədiyyə
verərəm». 8 Allah adamı isə padşaha dedi:
«Sən mənə malının yarısını da versən, səninlə
getmərəm, bu yerdə çörək yeyib su içmərəm.
9 Çünki Rəbbin sözü ilə mənə belə əmr gəldi:
"Orada çörək yeyib su içmə və getdiyin yolla
geri qayıtma"». 10 Allah adamı başqa yolla
getdi və Bet-Elə gəldiyi yolla geri qayıtmadı.

### *Allah adamı və qoca peyğəmbər*

11 Bet-Eldə qoca bir peyğəmbər yaşayırdı.
Onun oğullarından biri gəlib Allah adamının
həmin gün Bet-Eldə etdiyi bütün işlər barədə
danışdı. Oğulları onun padşaha söylədiyi
sözləri də atalarına bildirdilər. 12 Ata onlara
dedi: «O hansı yolla getdi?» Oğulları
Yəhudadan gələn Allah adamının hansı yolla
getdiyini ona göstərdilər. 13 O öz oğullarına
dedi: «Mənim üçün eşşəyi palanlayın». Eşşəyi
onun üçün palanladılar və o, eşşəyin üstünə
minib 14 Allah adamının dalınca getdi. Onu
palıd ağacının altında oturmuş halda tapdı və
ona dedi: «Yəhudadan gələn Allah adamı
sənsənmi?» O da «mənəm» dedi. 15 Sonra
qoca peyğəmbər ona dedi: «Mənimlə birgə
evə gedib nahar edək». 16 O dedi: «Səninlə
qayıdıb evinə getmərəm, bu yerdə səninlə
çörək yeyib su içmərəm. 17 Çünki Rəbbin sözü
ilə mənə deyildi: "Orada çörək yeyib su içmə
və getdiyin yolla geri qayıtma"». 18 Qoca
peyğəmbər ona dedi: «Mən də sənin kimi bir
peyğəmbərəm. Bir mələk Rəbbin sözü ilə

***12:28** – Çıx. 32:4*
[6] **12:28** *Qızıl dana* – bax: Çıx. 32:4.
***12:32-33** – Lev. 23:33-34*
***13:2** – 2Pad. 23:15-16*

mənə dedi: "Onu qaytarıb özünlə evinə gətir,
çörək yeyib su içsin"». Ancaq bunu ona
yalandan söylədi. [19] Allah adamı onunla
qayıtdı, onun evində çörək yeyib su içdi.
[20] Onlar süfrə arxasında oturarkən onu
yoldan qaytaran peyğəmbərə Rəbbin sözü
nazil oldu. [21] O, Yəhudadan gələn Allah
adamına müraciətlə dedi: «Rəbb belə deyir:
"Sən Rəbbin sözünə qarşı getdin və Allahın
Rəbbin sənə etdiyi əmrə əməl etmədin, [22] geri
qayıdaraq Onun sənə ‹çörək yeyib su içmə›
dediyi yerdə çörək yeyib su içdin. Buna görə
də cəsədin atalarının qəbrinə girməyəcək"».
[23] Yoldan qaytardığı peyğəmbər çörək
yeyib su içdikdən sonra qoca peyğəmbər onun
üçün eşşəyi palanladı. [24] Allah adamı getdi,
yolda ona bir şir rast gəldi və onu öldürdü.
Onun cəsədi yola sərilmişdi və eşşək onun
yanında dayanmışdı, şir də cəsədin yanında
durmuşdu. [25] Adamlar onların yanından
keçirdilər, yola sərilmiş cəsədi, cəsədin
yanında durmuş şiri gördülər və gəlib qoca
peyğəmbərin yaşadığı şəhərdə söylədilər.
[26] Onu yoldan qaytaran peyğəmbər bunu
eşidib dedi: «O, Rəbbin sözünə qarşı gedən
Allah adamıdır. Rəbb də ona söylədiyi sözə
görə onu şirə verdi və şir onu didib öldürdü».
[27] O, oğullarına dedi: «Mənim üçün eşşəyi
palanlayın». Onlar eşşəyi palanladılar. [28] O
gedib yola sərilmiş cəsədi tapdı. Eşşək və şir
cəsədin yanında durmuşdu. Şir cəsədi
yeməmiş və eşşəyə toxunmamışdı. [29] Qoca
peyğəmbər Allah adamının cəsədini götürüb
eşşəyin üstünə qoydu və yas tutub onu
basdırmaq üçün öz şəhərinə geri gətirdi.
[30] Onun cəsədini özünün qəbrinə qoydu. «Ah,
qardaşım!» deyib onun üçün yas tutdular.
[31] Onu basdırandan sonra qoca peyğəmbər
oğullarına dedi: «Öləndə məni Allah
adamının basdırıldığı qəbirdə basdırın,
sümüklərimi onun sümüklərinin yanına qoyun.
[32] Çünki Bet-Eldə olan qurbangaha və
Samariya şəhərlərində olan səcdəgahların
bütün ibadət evlərinə müraciətlə deyilmiş
Rəbbin sözü hökmən yerinə yetəcək».

### *Yarovam günahlarını davam etdirir*

[33] Bu işdən sonra da Yarovam öz pis
yolundan dönmədi. Yenə də səcdəgahlara
xalqın hər təbəqəsindən olan kahinlər qoydu.
O, səcdəgahların kahini olmaq istəyən hər
kəsi təqdis etdi. [34] Bu günah iş Yarovam
nəslinin yer üzündən silinib atılmasına və
məhv olmasına səbəb oldu.

### *Yarovamın oğlunun ölümü*

14 [1] O vaxt Yarovamın oğlu Aviya
xəstələndi. [2] Yarovam arvadına dedi:
«Qalx öz qiyafəni elə dəyiş ki, sənin
Yarovamın arvadı olduğunu bilməsinlər.
Şiloya get, peyğəmbər Axiya oradadır. O
mənim barəmdə demişdi ki, bu xalqın padşahı
olacağam. [3] Əlinə on kömbə çörək,
qurabiyələr və bir küpə bal götürüb onun
yanına get. Oğlana nə olacağını o sənə
bildirəcək». [4] Yarovamın arvadı belə də etdi:
qalxıb Şiloya getdi və Axiyanın evinə gəldi.
Axiya artıq görə bilmirdi, çünki qocaldığı
üçün gözləri zəifləmişdi. [5] Rəbb Axiyaya
demişdi: «Yarovamın arvadı oğlu barədə
səndən soruşmağa gəlir, çünki oğlu xəstədir.
O başqa bir qiyafədədir. Sən ona belə-belə
deyərsən».
[6] Qadın qapıdan girəndə Axiya onun ayaq
səslərini eşidib dedi: «Yarovamın arvadı, içəri
gəl! Sən nə üçün qiyafəni dəyişmisən? Mən
sənə ağır xəbər söyləmək üçün göndərilmişəm.
[7] Get, Yarovama söylə ki, İsrailin Allahı Rəbb
belə deyir: "Mən səni xalqın içindən
yüksəldib xalqım İsrailin üzərində hökmran
etdim. [8] Padşahlığı Davudun nəslindən çəkib
aldım və sənə verdim. Sən isə qulum Davud
kimi olmadın. O, əmrlərimə əməl edib
gözümdə yalnız doğru olan işi görmək üçün
bütün ürəyi ilə Mənə xidmət edirdi. [9] Özündən
əvvəl olanların hamısından çox pislik etdin.
Məni qəzəbləndirmək üçün gedib özünə başqa
allahlar, tökmə bütlər düzəltdin və Məni
kənara atdın. [10] Bunun üçün Mən Yarovamın
nəsli üzərinə bəla gətirəcəyəm. İsraildə
Yarovamın nəslindən divar isladan hər kəsi –
bütün kişiləri, istər kölə olsun, istər azad,
kəsib atacağam və onları peyin yandırılan
kimi hamısı tükənənə qədər bütünlüklə
yandırıb məhv edəcəyəm. [11] Yarovamdan
şəhərdə ölənləri köpəklər, çöldə ölənləri
quşlar yeyəcək, çünki Rəbb belə söylədi".
[12] Sən qalxıb evinə get. Şəhərə ayaq basdığın
vaxt oğlan öləcək. [13] Bütün İsraillilər yas tutub
onu basdıracaq. Amma Yarovam nəslindən
yalnız o, qəbrə gedəcək, çünki İsrailin Allahı
Rəbb Yarovamın nəslindən yalnız onda yaxşı
bir şey tapmışdır. [14] Rəbb Özü üçün İsrail

***14:10** – 1Pad. 15:29*

üzərində bir padşah qoyacaq, o da Yarovamın
nəslini bu gün kəsib atacaq, hətta indi belə
olacaq. 15 Rəbb İsraili suda yellənən bir qamış
kimi vuracaq və İsraillilləri atalarına verdiyi
bu yaxşı torpaqdan çəkib çıxaracaq, onları
Fərat çayının o tərəfinə səpələyəcək, çünki
özlərinə Aşera bütləri düzəldərək Rəbbi
qəzəbləndirdilər. 16 Yarovamın etdiyi və
İsraillilərə etdirdiyi günahları ucbatından
Rəbb İsraildən üz döndərəcək». 17 Yarovamın
arvadı qalxıb getdi və Tirsaya gəldi. Evin
astanasına ayaq basdığı vaxt oğlan öldü.
18 Bütün İsraillilər onu basdırıb yas tutdular.
Beləcə Rəbbin Öz qulu peyğəmbər Axiya
vasitəsilə söylədiyi sözü yerinə yetdi.

### *Yarovamın ölümü*

19 Yarovamın qalan işləri, necə döyüşdüyü
və necə padşahlıq etdiyi barədə İsrail
padşahlarının salnamələr kitabında
yazılmışdır. 20 Yarovam iyirmi iki il padşahlıq
etdi. O, ataları ilə uyudu və yerinə oğlu Nadav
padşah oldu.

### *Yəhuda padşahı Rexavam*

*(2Saln. 11:5-12:15)*

21 Süleyman oğlu Rexavam Yəhudada
padşahlıq etdi. Rexavam padşah olan vaxt
qırx bir yaşında idi. O, Rəbbin Öz adını
qoymaq üçün İsrailin bütün qəbilələrindən
seçdiyi şəhərdə – Yerusəlimdə on yeddi il
padşahlıq etdi. Anası Ammonlu olub adı
Naama idi.

22 Yəhudalılar Rəbbin gözündə pis olan
işlər etdilər və atalarının etdiyi bütün
günahlardan da çox günah etməklə Rəbdə
qısqanclıq oyatdılar. 23 Onlar da hər yüksək
təpə üzərində və hər kölgəli ağac altında
özləri üçün səcdəgahlar, sütunlar və Aşera
bütləri düzəltdilər. 24 Ölkədə həm də mə'bəd
fahişəliyi ilə məşğul olan kişilər var idi. Xalq
İsrail övladlarının önündən Rəbbin qovduğu
millətlərin bütün iyrənc işlərinə görə davrandı.

25 Rexavamın padşahlığının beşinci ilində
Misir padşahı Sisaq Yerusəlimə hücum etdi.
26 O, Rəbbin mə'bədinin və padşah sarayının
xəzinələrini götürdü. Hər şeyi aldı,
Süleymanın düzəltdiyi bütün qızıl qalxanları
da götürdü. 27 Padşah Rexavam onların yerinə
tunc qalxanlar düzəltdi və bunları padşah
sarayının qapısını qoruyan keşikçi rəislərinin
əlinə verdi. 28 Hər dəfə padşah Rəbbin
mə'bədinə gələndə keşikçilər onları daşıyır və
sonra keşikçilərin otağına geri gətirirdilər.

29 Rexavamın qalan işləri və onun etdiyi hər
şey barədə Yəhuda padşahlarının salnamələr
kitabında yazılmışdır. 30 Rexavamla Yarovam
arasında həmişə müharibə gedirdi. 31 Rexavam
ataları ilə uyudu və Davudun şəhərində,
atalarının yanında basdırıldı. Anası Ammonlu
olub adı Naama idi. Onun yerinə oğlu Aviya[7]
padşah oldu.

### *Yəhuda padşahı Aviya*

*(2Saln. 13:1-14:1)*

15 1 Nevat oğlu Yarovamın
padşahlığının on səkkizinci ilində
Aviya Yəhuda üzərində padşah oldu. 2 O,
Yerusəlimdə üç il padşahlıq etdi. Anasının adı
Avişalom qızı Maaka idi. 3 Aviya atasının
ondan qabaq etdiyi bütün günahları ilə getdi.
Onun ürəyi babası Davuddan fərqli olaraq,
Allahı Rəbbə sadiq deyildi. 4 Ancaq Allahı
Rəbb Davudun xatirinə ona Yerusəlimdə bir
çıraq verdi, özündən sonra oğlunu onun
yerinə oturtdu və Yerusəlimi möhkəmləndirdi.
5 Çünki Xetli Uriya ilə olan işindən başqa,
Davud Rəbbin gözündə doğru olan işlər etdi
və bütün ömrü boyu Onun əmr etdiyi heç bir
şeydən kənara çıxmadı. 6 Aviyanın bütün
ömrü boyu Rexavam və Yarovam arasında
müharibə gedirdi.

7 Aviyanın qalan işləri və onun etdiyi hər
şey barədə Yəhuda padşahlarının salnamələr
kitabında yazılmışdır. Aviya ilə Yarovam
arasında müharibə gedirdi. 8 Aviya ataları ilə
uyudu və onu Davudun şəhərində basdırdılar.
Onun yerinə oğlu Asa padşah oldu.

### *Yəhuda padşahı Asa*

*(2Saln. 15:16-16:6)*

9 İsrail padşahı Yarovamın padşahlığının
iyirminci ilində Asa Yəhuda üzərində padşah
oldu. 10 O, Yerusəlimdə qırx bir il padşahlıq
etdi. Nənəsinin adı Avişalom qızı Maaka idi.
11 Asa babası Davud kimi Rəbbin gözündə

***14:23*** *– 2Pad. 17:9-10*
***14:24*** *– Qanun. 23:17*
***14:25*** *– 2Saln. 12:2-8*
***14:26*** *– 1Pad. 10:16-17; 2Saln. 9:15-16*

[7] **14:31** *Aviya* – ibrani mətnində *Aviyam.* Bax: 2Saln. 12:16.
***15:4*** *– 1Pad. 11:36; 15:47; 2Pad. 8:19; 2Saln. 21:7; Zəb. 132:17*
***15:5*** *– 2Şam. 11:1-27*
***15:6*** *– 2Saln. 13:3-21*

doğru olan işlər etdi. 12 O, mə'bəd fahişəliyi
ilə məşğul olan kişiləri ölkədən qovdu və
atalarının düzəltdiyi bütün bütləri aradan
qaldırdı. 13 Nənəsi Maakanı da mələkəlikdən
məhrum etdi, çünki o, Aşera üçün iyrənc bir
büt düzəltmişdi. Asa onun bütünü kəsib
Qidron vadisində yandırdı. 14 Ancaq
səcdəgahlar aradan qaldırılmadı, lakin Asanın
ürəyi bütün ömrü boyu Rəbbə sadiq idi.

15 O, atasının və özünün təqdis etdiyi
əşyaları – qızılı, gümüşü və qabları Rəbbin
mə'bədinə gətirdi.

16 Asa ilə İsrail padşahı Baaşa arasında
ömürləri boyu müharibə gedirdi. 17 İsrail
padşahı Baaşa Yəhudaya hücum etdi və
Yəhuda padşahı Asanın yanına gəlib-getmək
istəyənləri buraxmamaq üçün Rama şəhərini
tikdi. 18 Asa Rəbbin mə'bədinin və padşah
sarayının xəzinələrində qalan bütün qızıl-
gümüşü götürüb ə'yanlarına verdi. Padşah
Asa onları Dəməşqdə yaşayan Aram padşahı
Xezyon oğlu Tavrimmon oğlu Ben-Hadada
bu xəbərlə göndərdi: 19 «Sənin atanla mənim
atam arasında saziş var idi, qoy bizim
aramızda da saziş olsun. Sənə qızıl-gümüş
hədiyyə göndərirəm. Get İsrail padşahı Baaşa
ilə olan sazişini poz ki, torpağımdan geri
çəkilsin». 20 Ben-Hadad padşah Asaya qulaq
asdı və qoşun başçılarını İsrail şəhərlərinin
üstünə göndərdi. Onun qoşunları bütün
Naftali torpağına – İyona, Dana, Avel-Bet-
Maakaya və bütün Kinneretə zərbə vurdular.
21 Baaşa bunu eşitdikdə Ramanı tikməyi
dayandırdı və Tirsada qaldı. 22 Padşah Asa
istisna etmədən bütün Yəhudalıları çağırdı və
onlar Ramada Baaşanın tikməkdə olduğu
yerlərin daşlarını və dirəklərini daşıdılar.
Bunlarla padşah Asa Binyamin torpağındakı
Gevanı və Mispanı tikdi.

23 Asanın bütün qalan işləri, onun bütün
hünəri, etdiyi hər şey və tikdiyi şəhərlər
barədə Yəhuda padşahlarının salnamələr
kitabında yazılmışdır. Ancaq qocalanda onun
ayaqları xəstə oldu. 24 Asa ataları ilə uyudu və
atası Davudun şəhərində, atalarının yanında
basdırıldı. Onun yerinə oğlu Yehoşafat
padşah oldu.

### *İsrail padşahı Nadav*

25 Yəhuda padşahı Asanın padşahlığının
ikinci ilində Yarovam oğlu Nadav İsrail
üzərində padşah oldu və iki il padşahlıq etdi.
26 O, Rəbbin gözündə pis olan işlər etdi,
atasının yolu və İsrailə etdirdiyi günahı ilə
getdi.

27 İssakar qəbiləsindən Axiya oğlu Baaşa
ona qəsd hazırladı və Filiştlilərə məxsus olan
Gibbetonda onu öldürdü. O zaman Nadav və
bütün İsraillilər Gibbetonu mühasirəyə
almışdılar. 28 Yəhuda padşahı Asanın
padşahlığının üçüncü ilində Baaşa Nadavı
öldürdü və onun yerinə padşah oldu. 29 O,
padşah olan kimi Yarovamın bütün nəslini
qırdı, Yarovamdan nəfəs çəkən hər kəsi məhv
edənə qədər bir nəfəri sağ buraxmadı. Beləcə
Rəbbin Öz qulu Şilolu Axiya vasitəsilə
söylədiyi söz yerinə yetdi. 30 İsrailin Allahı
Rəbbi qəzəbləndirərək Yarovamın özünün
etdiyi və İsrailə etdirdiyi günahların
ucbatından bu iş oldu.

31 Nadavın qalan işləri və onun etdiyi hər
şey barədə İsrail padşahlarının salnamələr
kitabında yazılmışdır. 32 Asa ilə İsrail padşahı
Baaşa arasında bütün ömürləri boyu müharibə
gedirdi.

### *İsrail padşahı Baaşa*

33 Yəhuda padşahı Asanın padşahlığının
üçüncü ilində Axiya oğlu Baaşa bütün İsrail
üzərində padşah oldu və Tirsada iyirmi dörd il
padşahlıq etdi. 34 O, Rəbbin gözündə pis olan
işlər etdi, Yarovamın yolu və İsrailə etdirdiyi
günahı ilə getdi.

16 1 Baaşaya qarşı Xanani oğlu Yehuya
Rəbbin bu sözü nazil oldu: 2 «Səni
torpaqdan yüksəldib xalqım İsrail üzərində
hökmran etdim, sən isə Yarovamın yolu ilə
gedib xalqım İsrailə günah etdirərək Məni
qəzəbləndirdin. 3 Buna görə də Baaşanı və
onun nəslini Nevat oğlu Yarovamın nəsli kimi
yandırıb məhv edəcəyəm. 4 Baaşadan şəhərdə
ölənləri köpəklər, çöldə ölənləri quşlar
yeyəcək».

5 Baaşanın qalan işləri, etdiyi hər şey və
onun hünəri barədə İsrail padşahlarının
salnamələr kitabında yazılmışdır. 6 Baaşa
ataları ilə uyudu və Tirsada basdırıldı. Onun
yerinə oğlu Ela padşah oldu.

7 Baaşa Rəbbin gözündə pis olan işlər
edərək Yarovamın nəsli kimi əməlləri ilə
Rəbbi qəzəbləndirdi. O, Yarovamın nəslini də

***15:12*** *– 2Saln. 15:8-15*

***15:29*** *– 1Pad. 14:10*

qırdı. Buna görə də peyğəmbər Xanani oğlu
Yehu vasitəsilə onun özünə və nəslinə qarşı
Rəbbin sözü nazil oldu.

### *İsrail padşahı Ela*

8 Yəhuda padşahı Asanın padşahlığının
iyirmi altıncı ilində Baaşa oğlu Ela İsrail
üzərində padşah oldu və Tirsada iki il
padşahlıq etdi.

9 Döyüş arabalarının yarısına başçılıq edən
ə'yanı Zimri ona qəsd hazırladı. Ela Tirsada,
öz saray rəisi olan Arsanın evində içib sərxoş
olarkən 10 Zimri içəri girdi, onu vurub öldürdü
və onun yerinə padşah oldu. Bu hadisə
Yəhuda padşahı Asanın padşahlığının iyirmi
yeddinci ilində oldu. 11 O padşah olub taxtda
oturan kimi Baaşanın bütün nəslini qırdı, istər
onun qohumlarından, istərsə də dostlarından
divar isladan heç kəsi – bir kişini də sağ
buraxmadı. 12 Peyğəmbər Yehu vasitəsilə
Baaşaya qarşı Rəbbin söylədiyi sözə görə
Zimri Baaşanın bütün nəslini məhv etdi.
13 Çünki Baaşa və oğlu Ela öz bütləri ilə
etdikləri və İsrailə etdirdikləri bütün
günahlara görə İsrailin Allahı Rəbbi
qəzəbləndirmişdilər.

14 Elanın qalan işləri və onun etdiyi hər şey
barədə İsrail padşahlarının salnamələr
kitabında yazılmışdır.

### *İsrail padşahı Zimri*

15 Yəhuda padşahı Asanın padşahlığının
iyirmi yeddinci ilində Zimri Tirsada yeddi
gün padşahlıq etdi. O vaxt xalq Filiştlilərə
məxsus olan Gibbetona qarşı qurulmuş
ordugahda qalırdı. 16 Zimrinin padşaha qəsd
hazırladığını və onu öldürdüyünü ordugahda
olan xalq eşitdi. O gün bütün İsraillilər ordu
başçısı Omrini ordugahda İsrail üzərində
padşah etdilər. 17 Omri bütün İsraillilərlə birgə
Gibbetondan gəlib Tirsanı mühasirəyə aldı.
18 Zimri şəhərin alınacağını görəndə padşah
sarayının qalasına girdi və padşah sarayını
odladı, özü də həlak oldu. 19 Ona görə ki
günah edərək Rəbbin gözündə pis olan işlər
etmişdi: Yarovamın yolu və günahı ilə gedib
İsrailə günah etdirmişdi. 20 Zimrinin qalan
işləri və onun hazırladığı qəsd barədə İsrail
padşahlarının salnamələr kitabında
yazılmışdır.

21 O vaxt İsrail xalqı iki hissəyə bölündü:
xalqın yarısı Ginat oğlu Tivnini padşah etmək
üçün onun dalınca, yarısı isə Omrinin dalınca
getdi. 22 Omrinin dalınca gedən xalq Ginat
oğlu Tivninin dalınca gedən xalqa üstün gəldi.
Beləliklə, Tivni öldü və Omri padşah oldu.

### *İsrail padşahı Omri*

23 Yəhuda padşahı Asanın padşahlığının
otuz birinci ilində Omri İsrail üzərində padşah
oldu və on iki il padşahlıq etdi. Tirsada altı il
padşahlıq etdi. 24 O, Samariya dağını
Samardan iki talant gümüşə satın aldı və
dağın üstündə şəhər tikib, adını dağın sahibi
Samarın adına görə Samariya qoydu. 25 Omri
Rəbbin gözündə pis olan işlər etdi və özündən
əvvəl olanların hamısından çox pislik etdi.
26 O, Nevat oğlu Yarovamın yolu və onun
İsrailə etdirdiyi günahlarla gedib İsrailin
Allahı Rəbbi öz bütləri ilə qəzəbləndirdi.

27 Omrinin etdiyi qalan işlər və göstərdiyi
hünər barədə İsrail padşahlarının salnamələr
kitabında yazılmışdır. 28 Omri ataları ilə uyudu
və Samariyada basdırıldı. Onun yerinə oğlu
Axav padşah oldu.

### *İsrail padşahı Axav*

29 Yəhuda padşahı Asanın padşahlığının
otuz səkkizinci ilində Omri oğlu Axav İsrail
üzərində padşah oldu. O, Samariyada iyirmi
iki il padşahlıq etdi. 30 Omri oğlu Axav
özündən əvvəl olanların hamısından çox
Rəbbin gözündə pis olan işlər etdi. 31 Nevat
oğlu Yarovamın günahları ilə getmək ona az
gəlirdi, üstəlik Sidonluların padşahı Etbaalın
qızı İzeveli də arvad alıb Baala qulluq və
səcdə etdi. 32 O, Samariyada tikdiyi Baal
mə'bədində Baal üçün qurbangah qurdu.
33 Aşera bütü də düzəltdi. Axav özündən əvvəl
olan bütün İsrail padşahlarından çox pislik
edərək İsrailin Allahı Rəbbi qəzəbləndirdi.

34 Onun dövründə Bet-Elli Xiel Yerixonu
tikdi. Nun oğlu Yeşua vasitəsilə Rəbbin
söylədiyi sözə görə o, ilk oğlu Aviramın
həyatı bahasına şəhərin bünövrəsini tikdi və
kiçik oğlu Sequvun həyatı bahasına qapılarını
qoydu.

### *İlyasın quraqlıq barədə xəbərdarlığı*

17 1 Gilead sakinlərindən olan Tişbeli
İlyas Axava dedi: «Önündə durduğum
İsrailin Allahı var olan Rəbbə and olsun ki,
mənim bir sözüm olmayınca bu illərdə şeh və
yağış olmayacaq».

---

***16:34** – Yeşua 6:26*
***17:1** – Yaq. 5:17*

2 Ona Rəbbin bu sözü nazil oldu:
3 «Buradan get və şərqə tərəf yollan, İordan
çayının şərqində olan Kerit vadisində gizlən.
4 Orada vadidən su içəcəksən, səni yedirməyi
də qarğalara əmr etdim». 5 O, Rəbbin sözünə
əməl etdi və İordan çayının şərqində olan
Kerit vadisinə gedib orada qaldı. 6 Qarğalar
ona hər səhər-axşam çörək və ət gətirərdilər,
vadidən də su içərdi. 7 Bir müddət sonra vadi
qurudu, çünki ölkədə yağış yağmırdı.

### *İlyas və Sarfatlı qadın*

8 İlyasa Rəbbin bu sözü nazil oldu: 9 «Qalx
Sidonun Sarfat şəhərinə get və orada qal.
Orada bir dul qadına sənə yemək verməyi əmr
etdim». 10 O qalxıb Sarfata getdi. Şəhərin
darvazasına çatanda bir dul qadının odun
yığdığını gördü və onu çağırıb dedi: «Mənə
bir qabda azca su gətir, içim». 11 Qadın
gətirməyə gedəndə onu çağırıb dedi: «Mənim
üçün əlinə bir tikə çörək də al». 12 Qadın dedi:
«Allahın var olan Rəbbə and olsun ki, bişmiş
heç nəyim yoxdur, ancaq küpdə bir ovuc un
və qabda bir az yağ var. Bax mən iki parça
odun yığıram və içəri girib özümlə oğlum
üçün bunlardan yemək hazırlayacağam. Biz
onu yeyəcəyik və sonra öləcəyik». 13 İlyas ona
dedi: «Qorxma, get söylədiyin kimi et. Amma
əvvəlcə mənim üçün ondan kiçik bir kökə
düzəlt və mənə gətir, özünlə oğlun üçün sonra
hazırlayarsan. 14 Çünki İsrailin Allahı Rəbb
belə deyir: "Rəbb torpaq üzərinə yağış
verəcəyi günə qədər nə küpdə un tükənəcək,
nə də qabda yağ qurtaracaq"». 15 Qadın gedib
İlyasın sözünə əməl etdi. Qadın və onun ailəsi
İlyasla birgə uzun müddət ərzində yemək
yedilər. 16 İlyas vasitəsilə Rəbbin söylədiyi
sözə görə nə küpdə un tükəndi, nə də qabda
yağ qurtardı.

17 Bundan sonra ev sahibi qadının oğlu
xəstələndi, xəstəliyi də çox ağır oldu, belə ki
onun heç nəfəsi gəlmirdi. 18 Qadın İlyasa dedi:
«Mən sənə nə etdim, ey Allah adamı?
Günahımı xatırlatmaq və oğlumu öldürmək
üçün yanıma gəlmisən?» 19 İlyas ona dedi:
«Oğlunu mənə ver». Uşağı qadının
qucağından götürüb özünün qaldığı yuxarı
otağa çıxartdı və onu öz yatağının üstünə
uzandırdı. 20 O, Rəbbi çağırıb dedi: «Ey
Allahım Rəbb, yanında qaldığım dul qadının
oğlunu öldürməklə onun başına bəla
gətirirsən?» 21 Sonra uşağın üstünə üç dəfə
uzandı və Rəbbi çağırıb dedi: «Ey Allahım
Rəbb, sənə yalvarıram, qoy bu uşağın canı
özünə qayıtsın». 22 Rəbb İlyasın səsini eşitdi:
uşağın canı özünə qayıtdı və o dirildi. 23 İlyas
uşağı götürüb yuxarı otaqdan evə düşürtdü və
onu anasına verib dedi: «Bax oğlun sağdır».
24 Qadın İlyasa dedi: «İndi bildim ki, sən
Allah adamısan və sənin ağzında Rəbbin sözü
haqdır».

### *İlyas və Avdiya*

18 1 Uzun müddət sonra, quraqlığın
üçüncü ilində İlyasa Rəbbin bu sözü
nazil oldu: «Get, Axava görün. Mən torpağın
üzərinə yağış verəcəyəm». 2 İlyas Axava
görünmək üçün getdi. O vaxt Samariyada
şiddətli aclıq idi. 3 Axav saray rəisi olan
Avdiyanı çağırdı. Avdiya Rəbdən çox
qorxurdu. 4 İzevel Rəbbin peyğəmbərlərini
qırıb öldürən zaman Avdiya peyğəmbərlərdən
yüz nəfəri aparıb onları əlli-əlli olaraq
mağaralarda gizlətmiş, çörək və su ilə tə'min
etmişdi. 5 Axav Avdiyaya dedi: «Ölkədə olan
bütün su mənbələrinə və vadilərə get. Bəlkə
ot tapdıq, atları və qatırları salamat saxladıq,
heyvanlar da tələf olmadı». 6 Onlar ölkəni
aralarında böldülər ki, hər tərəfi gəzib
dolaşsınlar. Axav ayrıca, bir yolla, Avdiya isə
ayrıca, başqa bir yolla getdi.

7 Avdiya yolda ikən İlyas ona rast gəldi. O,
İlyası tanıdı və üzüstə yerə düşüb dedi:
«Ağam İlyas, bu sənsənmi?» 8 İlyas dedi:
«Mənəm. Get, ağana de ki, İlyas buradadır».
9 O dedi: «Nə günah etmişəm ki, mən qulunu
öldürmək üçün Axavın əlinə verirsən?
10 Allahın var olan Rəbbə and olsun ki,
ağamız səni axtarmağa adam göndərmədiyi
bir millət, bir padşahlıq qalmadı. Onlar "o
burada yoxdur" dedikləri vaxt həmin
padşahlığa və millətə səni tapmadıqlarına and
içdirdi. 11 Amma indi sən deyirsən: "Get,
ağana de ki, İlyas buradadır". 12 Sənin
yanından getdiyim vaxt Rəbbin Ruhu səni
bilmədiyim bir yerə aparacaq. Mən də gedib
Axava bildirəndə o səni tapmayacaq və məni
öldürəcək. Ancaq bu qulun cavanlığından bəri
Rəbdən qorxur. 13 İzevel Rəbbin
peyğəmbərlərini qırıb öldürən zaman mənim
etdiyim iş ağama bildirilmədimi? Mən onda
Rəbbin peyğəmbərlərindən yüz nəfəri əlli-əlli
olaraq mağaralarda gizlətdim və onları çörək
və su ilə tə'min etdim. 14 İndi sən deyirsən:

***17:9** – Luk. 4:25-26*

“Get, ağana de ki, İlyas buradadır”. Axı o
məni öldürər». 15 İlyas dedi: «Önündə
durduğum var olan Ordular Rəbbinə and
olsun ki, bu gün hökmən ona görünəcəyəm».

### *İlyas Karmel dağında*

16 Avdiya Axavın yanına getdi və ona hər
şeyi danışdı. Axav da İlyası qarşılamağa getdi.
17 Axav İlyası görəndə ona dedi: «Ey İsraili
dərdə salan adam, bu sənsənmi?» 18 O cavab
verdi: «İsraili mən yox, sən və atanın evi
dərdə saldınız. Siz Rəbbin əmrlərindən dönüb
Baal bütlərinə xidmət etdiniz. 19 İndi bütün
İsraillilləri, İzevelin süfrəsində yemək yeyən
dörd yüz əlli Baal peyğəmbərini və dörd yüz
Aşera peyğəmbərini Karmel dağına, yanıma
çağırtdır».
20 Axav bütün İsrail övladlarını və
peyğəmbərləri Karmel dağına çağırtdırdı.
21 İlyas bütün xalqın yanına gəlib dedi: «Nə
vaxta qədər iki tərəfə əyiləcəksiniz? Əgər
Rəbb Allahdırsa, ona xidmət edin, yox, Baal
Allahdırsa, onda ona xidmət edin». Xalq onun
sözünə cavab vermədi. 22 Onda İlyas xalqa
dedi: «Rəbbin peyğəmbərlərindən təkcə mən
qaldım, amma Baalın peyğəmbərləri dörd yüz
əlli nəfərdir. 23 İndi qoy bizə iki buğa verilsin:
onlar özləri üçün bir buğa seçsinlər, onu
doğrayıb odunların üstünə qoysunlar, ancaq
od vurmasınlar. Mən isə başqa buğanı
hazırlayıb onu odunların üstünə qoyacağam,
ancaq od vurmayacağam. 24 Siz öz allahınızı
çağırın, mən də Rəbbi çağıracağam; hansı
odla cavab verərsə, Allah odur». Bütün xalq
cavab verib «qoy belə olsun» dedi.
25 İlyas Baal peyğəmbərlərinə dedi: «Bir
buğanı özünüz üçün seçin və məndən əvvəl
onu hazırlayın, çünki siz çoxsunuz. Siz öz
allahınızı çağırın, ancaq od vurmayın».
26 Onlar özlərinə verilən buğanı götürüb
hazırladılar və səhərdən günortaya qədər «Ey
Baal, bizə cavab ver!» deyə Baalı çağırdılar,
ancaq heç səs-soraq olmadı. Onlar
düzəltdikləri qurbangahın ətrafında gəzərək
atılıb düşdülər. 27 Günorta olanda İlyas onları
lağa qoyub dedi: «Onu uca səslə çağırın. O ki
allahdır, bəlkə fikrə gedib yaxud
ayaqyolundadır ya da səfərdədir? Bəlkə də
yatıb, oyatmaq lazımdır?» 28 Onlar uca səslə
çağırdılar və adətlərinə görə bədənlərindən
qan axana qədər qılınc və nizələrlə özlərini
yaraladılar. 29 Günorta keçincə, axşam qurbanı
təqdim olunan vaxta qədər coşub dəlilik
etdilər, ancaq nə bir səs-soraq verən, nə də bir
qulaq asan var idi.
30 İlyas bütün xalqa dedi: «Mənim yanıma
gəlin». Bütün xalq onun yanına gəldi. O,
Rəbbin dağıdılmış qurbangahını bərpa etdi.
31 İlyas Yaqub oğulları qəbilələrinin sayına
görə on iki daş götürdü, çünki Yaquba «sənin
adın İsrail olacaq» deyə Rəbbin sözü nazil
olmuşdu. 32 İlyas daşlarla Rəbbin adına
qurbangah tikdi. O, qurbangahın ətrafında iki
sea toxum tutacaq qədər bir xəndək düzəltdi.
33 Odunları düzdü, buğanı doğrayıb odunların
üzərinə qoydu 34 və dedi: «Dörd səhəng su
gətirin, onu yandırma qurbanının və odunların
üstünə tökün». Sonra o dedi: «İkinci dəfə
edin». Onlar ikinci dəfə etdilər. O dedi:
«Üçüncü dəfə edin». Onlar üçüncü dəfə
etdilər. 35 Su qurbangahın ətrafına axdı və
xəndək də su ilə doldu.
36 Axşam qurbanı təqdim edilən vaxt
peyğəmbər İlyas qabağa çıxıb dedi: «Ey
İbrahimin, İshaqın və İsrailin Allahı Rəbb!
Qoy bu gün bilinsin ki, İsraildə Sən Allahsan
və mən Sənin qulunam, bütün bu işləri də
Sənin sözünlə etdim. 37 Səsimi eşit, ya Rəbb,
mənə cavab ver. Qoy bu xalq bilsin ki, Sən
Allahsan, ya Rəbb, onda onların ürəyini
Özünə tərəf döndərəcəksən».
38 O vaxt Rəbdən od düşdü, yandırma
qurbanını, odunları, daşları, torpağı yandırıb
yaxdı və xəndəkdə olan suyu uddu. 39 Bütün
xalq bunu gördü və onlar üzüstə düşüb dedilər:
«Rəbb Allahdır! Rəbb Allahdır!» 40 İlyas
onlara dedi: «Baal peyğəmbərlərini tutun,
onlardan bir nəfər də qaçıb qurtarmasın».
Onları tutdular. İlyas onları Qişon vadisinə
endirib orada öldürdü.

### *Quraqlığın sonu*

41 İlyas Axava dedi: «Get, yeyib-iç, çünki
güclü yağış səsi gəlir». 42 Axav yeyib-içməyə
getdi. İlyas Karmel dağının təpəsinə çıxdı,
yerə əyilib üzünü dizləri arasına qoydu. 43 Öz
nökərinə dedi: «İndi qalx və dəniz tərəfə
diqqətlə bax». Nökər qalxdı və diqqətlə baxıb
«bir şey yoxdur» dedi. İlyas yeddi dəfə ona
«yenə get» dedi. 44 Yeddinci dəfə gedəndə
nökər dedi: «Budur, dənizdən insan ovcu
boyda kiçik bir bulud çıxır». İlyas dedi:
«Gedib Axava söylə: “Arabanı qoşub aşağı en

---

***18:31*** *– Yar. 32:28; 35:10*
***18:42-45*** *– Yaq. 5:18*

ki, yağış səni ləngitməsin”». 45 Bu vaxt göylər
qalın buludlarla qaraldı, külək əsdi və güclü
yağış yağmağa başladı. Axav arabaya minib
İzreelə getdi. 46 İlyasa Rəbbin gücü gəldi və o,
belini qurşayıb Axavın önündə İzreelin
girəcəyinə qədər qaçdı.

### *İlyasın tə’qibdən qaçması*

19 1 Axav İlyasın etdiyi bütün işləri və
onun necə bütün peyğəmbərləri
qılıncla öldürdüyünü İzevelə danışdı. 2 İzevel
İlyasın yanına qasid göndərib dedi: «Sabah bu
vaxt mən səni onların gününə salmasam, qoy
allahlar məni belə və bundan betər etsin».
3 İlyas bunu görüb canını qurtarmaq üçün
Yəhudada olan Beer-Şevaya getdi. Nökərini
orada qoyub, 4 özü çöldə bir günlük yol getdi.
Gəlib bir süpürgə ağacının altında oturdu və
canına ölüm diləyib dedi: «Bəsdir, ya Rəbb,
indi mənim canımı al, çünki mən atalarımdan
yaxşı deyiləm». 5 O, süpürgə ağacının altında
uzanıb yuxuya getdi. Bu zaman bir mələk ona
toxunub dedi: «Qalx yemək ye!» 6 İlyas baxıb
gördü ki, başının kənarında isti daş üzərində
bişən bir kökə və bir bardaq su var. O yeyib
içdi və yenə yuxuya getdi. 7 Rəbbin mələyi
ikinci dəfə qayıtdı və ona toxunub dedi:
«Qalx yemək ye, çünki çox uzun yol
gedəcəksən». 8 O qalxdı və yeyib içdi.
Yeməyin gücü ilə qırx gün-qırx gecə Allahın
dağı Xorevə qədər getdi.

### *Rəbbin İlyasa görünməsi*

9 İlyas oradakı mağaraya girdi və burada
gecələdi. Ona «İlyas, burada nə edirsən?»
deyə Rəbbin sözü nazil oldu. 10 O dedi: «Mən
Ordular Allahı Rəbb üçün çox fədakarlıq
göstərdim. Çünki İsrail övladları Sənin əhdini
unutdular, qurbangahlarını dağıtdılar və
peyğəmbərlərini qılıncla öldürdülər. Təkcə
mən qaldım, onlar canımı almaq üçün məni
də axtarırlar». 11 O dedi: «Çıx, dağda Rəbbin
önündə dur, çünki Rəbb buradan keçəcək».
Dağları yaran və Rəbbin önündə qayaları
parçalayan böyük və güclü bir külək əsdi,
ancaq Rəbb küləkdə deyildi. Küləkdən sonra
zəlzələ oldu, ancaq Rəbb zəlzələdə deyildi.
12 Zəlzələdən sonra od düşdü, ancaq Rəbb
odda deyildi. Oddan sonra xəfif bir meh səsi
gəldi. 13 İlyas bunu eşidəndə üzünü cübbəsi ilə
örtdü və çıxıb mağaranın ağzında dayandı. Bir
səs ona dedi: «İlyas, burada nə edirsən?» 14 O
dedi: «Mən Ordular Allahı Rəbb üçün çox
fədakarlıq göstərdim. Çünki İsrail övladları
Sənin əhdini unutdular, qurbangahlarını
dağıtdılar və peyğəmbərlərini qılıncla
öldürdülər. Təkcə mən qaldım, onlar canımı
almaq üçün məni də axtarırlar».
15 Rəbb ona dedi: «Qalx çöl yolu ilə
Dəməşqə get. Oraya çatanda Xazaeli Aram
üzərində padşah olmaq üçün məsh et, 16 Nimşi
oğlu Yehunu İsrail üzərində padşah olmaq
üçün məsh et, Avel-Mexoladan olan Şafat
oğlu Elişanı öz yerinə peyğəmbər olmaq üçün
məsh et. 17 Xazaelin qılıncından qurtaranı
Yehu öldürəcək, Yehunun qılıncından
qurtaranı Elişa öldürəcək. 18 Ancaq Mən
İsraildə dizləri Baala əyilməmiş və ağızları
onu öpməmiş hər kəsi – yeddi min adamı
qoruyub saxlamışam».

### *Elişanın peyğəmbərlik çağırışı*

19 İlyas oranı tərk etdi və Şafat oğlu Elişanı
tapdı. O, yer şumlayırdı, önündə on iki cüt
öküz var idi və özü on ikinci cüt öküzü
sürürdü. İlyas Elişanın yanından keçəndə
cübbəsini onun üstünə atdı. 20 Elişa öküzləri
qoyub İlyasın dalınca qaçdı və dedi: «Qoy
gedib ata-anamı öpüm, sonra sənin dalınca
gələrəm». İlyas ona dedi: «Geri qayıt, mən
sənə nə etdim?» 21 Elişa ondan ayrılıb geri
qayıtdı. Öz bir cüt öküzünü götürüb onları
qurban kəsdi. Öküzləri kotanın taxtaları ilə
bişirib ətlərini xalqa verdi və onlar yedilər.
Sonra o qalxıb İlyasın dalınca getdi və ona
xidmət etdi.

### *Ben-Hadadın Samariyaya hücumu*

20 1 Aram padşahı Ben-Hadad bütün
ordusunu topladı. Onunla birgə otuz
iki padşah, atlar və döyüş arabaları var idi.
Ben-Hadad gəlib Samariyanı mühasirəyə aldı
və şəhərə hücum etdi. 2 O, şəhərə, İsrail
padşahı Axavın yanına qasidlər göndərib dedi:
«Ben-Hadad belə deyir: 3 “Sənin qızıl-
gümüşün mənimdir, arvadlarının və
oğullarının ən yaxşıları da mənimdir”». 4 İsrail
padşahı cavab verib dedi: «Ağam padşah
sənin söylədiyin kimi özüm və hər nəyim var,
sənindir». 5 Qasidlər yenə gəlib dedilər: «Ben-
Hadad belə söyləyir: “Hərçənd ki sənə ‹qızıl-

---

***19:10,14*** *– Rom. 11:3*

***19:15-16*** *– 2Pad. 8:7-13*
***19:15-16*** *– 2Pad. 9:16*
***19:18*** *– Rom. 11:4*
***19:20*** *– Luk. 9:61*

gümüşünü, arvadlarını və oğullarını mənə
ver› deyə xəbər göndərdim, 6 ancaq sabah bu
vaxt adamlarımı sənin yanına göndərəcəyəm.
Evini və ə'yanlarının evlərini axtaracaqlar və
sənin xoşuna gələn hər şeyi götürüb
gətirəcəklər"».
7 İsrail padşahı ölkənin bütün ağsaqqallarını
çağırıb dedi: «Görün bu adam necə pislik
axtarır. Arvadlarımı, oğullarımı, qızıl-
gümüşümü məndən tələb etdi, mən ondan
əsirgəmədim». 8 Bütün ağsaqqallar və xalq
ona «qulaq asma və razı olma» dedilər. 9 O,
Ben-Hadadın qasidlərinə dedi: «Ağam
padşaha deyin: "Bu qulundan əvvəlcə
istədiyin hər şeyi verərəm, ancaq bunu edə
bilməyəcəyəm"». Qasidlər gedib onun sözünü
çatdırdılar. 10 Ben-Hadad ona xəbər göndərib
dedi: «Əgər Samariya torpağı mənim dalımca
gedən qoşunun ovuclarını doldurmağa bəs
edərsə, allahlar məni belə və bundan betər
etsin». 11 İsrail padşahı cavab verib dedi:
«Söyləyin, qurşanan adam soyunan kimi
öyünməsin». 12 Bu sözü eşidəndə Ben-Hadad
padşahlarla birgə çadırlarda şərab içirdi. O,
əsgərlərinə «Sıraya düzülün!» dedi. Onlar
şəhərin qarşısında sıraya düzüldülər.

### *Axavın Ben-Hadadı məğlub etməsi*

13 Bu vaxt bir peyğəmbər İsrail padşahı
Axavın yanına gəlib dedi: «Rəbb belə deyir:
"Bu böyük qoşunu görürsənmi? Bu gün onu
sənə təslim edəcəyəm və biləcəksən ki, Rəbb
Mənəm"». 14 Axav dedi: «Kimin vasitəsilə?»
O dedi: «Rəbb belə deyir: "Əyalət
başçılarının xidmətində olan igidlərin
vasitəsilə bunu edəcəyəm"». Sonra Axav dedi:
«Döyüşü kim başlayacaq?» O cavab verdi:
«Sən». 15 Sonra Axav əyalət başçılarının
igidlərini sıraya düzdü: onlar iki yüz otuz iki
nəfər idi. Onlardan sonra orada olan xalqın
hamısını – bütün İsrail övladlarını sıraya
düzdü: onlar yeddi min nəfər idi.
16 Onlar günorta oradan çıxdılar. Ben-
Hadad və ona kömək edən otuz iki padşah
çadırlarda içib sərxoşluq edirdilər. 17 Əvvəl
əyalət başçılarının igidləri çıxdılar. Ben-
Hadadın göndərdiyi casuslar ona
«Samariyadan adamlar çıxır» deyə bildirdilər.
18 O dedi: «Əgər sülh üçün çıxırlarsa, onları
diri tutun, yox, döyüş üçün çıxırlarsa, yenə
onları diri tutun». 19 O vaxt bu adamlar – həm
əyalət başçılarının igidləri, həm də onların
ardınca gələn qoşun artıq şəhərdən çıxmışdı.
20 Onlardan hər biri qarşısında duranı vurdu.
Aramlılar qaçdılar və İsraillilər onları tə'qib
etdilər. Aram padşahı Ben-Hadad at üstündə
süvariləri ilə birgə qaçıb qurtardı. 21 İsrail
padşahı oradan çıxıb atlara və döyüş
arabalarına hücum etdi və Aramlıları böyük
tələfata uğratdı.

### *Aramlıların ikinci hücumu*

22 Həmin peyğəmbər İsrail padşahının
yanına gəlib ona dedi: «Get özünü
möhkəmləndir, gör ki, nə etməlisən. Çünki
bahar gələndə Aram padşahı yenə sənin
üstünə gələcək».
23 Aram padşahının ə'yanları ona deyirdilər:
«İsraillilərin Allahı təpələr Allahıdır, buna
görə də onlar bizə qalib gəldilər. Onlarla
düzənlikdə vuruşaq, hökmən biz onlara qalib
gələcəyik. 24 Belə et: padşahların hər birini
vəzifəsindən götür və onların yerinə valilər
tə'yin et. 25 Sən isə at yerinə at, araba yerinə
araba qoyaraq itirdiyin ordu kimi özün üçün
bir ordu düzəlt ki, biz onlara qarşı düzənlikdə
vuruşaq. Hökmən biz onlara qalib gələcəyik».
Ben-Hadad onların sözünə qulaq asdı və belə
etdi.
26 Bahar gələndə Ben-Hadad Aramlıları
topladı və İsraillilərlə vuruşmaq üçün Afeqə
doğru getdi. 27 İsrail övladları da toplaşdılar,
azuqə hazırladılar və onların qarşısına getdilər.
İsrail övladları onların önündə iki kiçik sürü
kimi ordugah qurdular, Aramlılar isə hər
tərəfi tutmuşdular. 28 Allah adamı İsrail
padşahının yanına gəlib dedi: «Rəbb belə
deyir: "Aramlılar ‹Rəbb təpələr Allahıdır,
düzənliklər Allahı deyil› deyirlər. Buna görə
də Mən bu böyük qoşunu bütünlüklə sənə
təslim edəcəyəm və biləcəksiniz ki, Rəbb
Mənəm"». 29 Onlar bir-birlərinin qarşısında
yeddi gün ordugahda qaldılar. Yeddinci gün
döyüş başlandı. İsrail övladları bir gündə
Aramlıların piyada qoşunundan yüz min
nəfəri qırdılar. 30 Onların qalanları Afeqə –
şəhərin içinə qaçdılar. Şəhərin divarı qalan
iyirmi yeddi min nəfərin üstünə yıxıldı. Ben-
Hadad şəhərə qaçıb bir iç otağa girdi.
31 Ə'yanları ona dedilər: «Biz eşitmişik ki,
İsrail padşahları mərhəmətli padşahlardır.
Gəlin bellərimizə çul, başlarımıza ip sarıyaq
və İsrail padşahının yanına gedək. Bəlkə o
səni sağ buraxar». 32 Onlar bellərinə çul,
başlarına ip bağladılar və gəlib İsrail

padşahına dedilər: «Qulun Ben-Hadad
"yalvarıram, məni sağ burax" deyir». İsrail
padşahı dedi: «O hələ sağdır? O ki mənim
qardaşımdır». 33 Bu adamlar bir əlamət
gözləyirdilər, padşahın sözünü yaxşı əlamət
sayıb cəld dedilər: «Bəli, Ben-Hadad sənin
qardaşındır». O dedi: «Gedin, onu gətirin».
Ben-Hadad onun yanına gəldi və o, Ben-
Hadadı öz döyüş arabasına mindirdi. 34 Ben-
Hadad ona dedi: «Mənim atamın sənin
atandan aldığı şəhərləri geri qaytarıram.
Atamın Samariyada düzəltdiyi kimi sən də
Dəməşqdə özün üçün bazarlar düzəldərsən».
İsrail padşahı dedi: «Mənimlə saziş
bağlayandan sonra səni buraxacağam». Ben-
Hadadla saziş bağladı və onu buraxdı.

### *İsrail padşahı və peyğəmbər*

35 Peyğəmbərlərdən olan bir nəfər Rəbbin
sözü ilə öz yoldaşına dedi: «Məni vur». O
adam onu vurmaq istəmədi. 36 Onda
peyğəmbər o adama dedi: «İndi ki sən Rəbbin
sözünə qulaq asmadın, mənim yanımdan
gedəndə bir şir səni öldürəcək». Peyğəmbərin
yanından gedəndə bir şir ona rast gəlib onu
öldürdü. 37 Peyğəmbər başqa bir adam tapıb
ona dedi: «Məni vur». O adam peyğəmbəri
vurub yaraladı. 38 Peyğəmbər getdi və
gözlərini örtərək qiyafəsini dəyişib padşahın
yolu üstündə dayandı. 39 Padşah keçəndə onu
səsləyib dedi: «Bu qulun döyüşün ortasına
girmişdi. Bu zaman bir adam kənara çəkildi
və mənim yanıma bir nəfər gətirib dedi: "Bu
adamı qoru. Əgər aradan çıxsa, əvəzində ya
canını verəcəksən ya da bir talant gümüş".
40 Bu qulun orada-burada çalışarkən o,
yanımdan qaçdı». İsrail padşahı bu adama
dedi: «Hökmün elə də olmalıdır, özün qərar
vermisən». 41 O cəld gözlərindən örtüyü
götürdü. İsrail padşahı onun peyğəmbərlərdən
biri olduğunu gördü. 42 O, İsrail padşahına
dedi: «Rəbb belə deyir: "Mənim lə'nətlədiyim
adamı sən əldən buraxdın. Buna görə də onun
yerinə sən öləcəksən və onun xalqının başına
gələcək işlər sənin xalqının başına gələcək"».
43 İsrail padşahı qaşqabaqlı və dilxor halda
Samariyada olan evinə gəldi.

### *Navotun bağı*

21 1 İzreeldə, Samariya padşahı Axavın
sarayının yanında İzreelli Navotun bir
üzüm bağı var idi. 2 Bir müddət sonra Axav
Navota dedi: «Üzüm bağını mənə ver ki,
oranı özüm üçün bostan edim, çünki evimə
yaxındır. Mən onun əvəzinə sənə daha yaxşı
bağ verərəm ya da istəsən, onun dəyərini sənə
pulla ödəyərəm». 3 Navot Axava dedi: «Qoy
atalarımın mirasını sənə verməyi Rəbb
məndən uzaq etsin!» 4 Axav evinə qaşqabaqlı
və dilxor halda qayıtdı, çünki İzreelli Navot
ona «atalarımın mirasını sənə verməərəm»
demişdi. O, yatağı üzərinə uzanıb üzünü
çevirdi və yemək yemədi.
5 Arvadı İzevel yanına gəlib ona dedi:
«Niyə qanın qaradır, heç yemək də
yemirsən?» 6 O dedi: «Mən İzreelli Navota
"üzüm bağını pulla mənə sat ya da istəsən,
onun əvəzində sənə başqa üzüm bağı
verərəm" söylədim, o isə dedi: "Üzüm bağımı
sənə verməərəm"». 7 Arvadı İzevel ona dedi:
«İndi İsrail üzərində padşahlıq edən sənsən ya
yox? Qalx yemək ye, ürəyini sıxma. İzreelli
Navotun üzüm bağını mən sənə verərəm». 8 O,
Axavın adından məktublar yazdı və onları
Axavın möhürü ilə möhürlədi. Navotun
şəhərində onunla birgə yaşayan ağsaqqallara
və ə'yanlara məktublar göndərdi. 9 İzevel
məktublarda belə yazdı: «Oruc e'lan edin və
Navotu xalqın arasında yuxarı başda
əyləşdirin. 10 İki nəfər yaramaz adamı onun
qarşısında oturdun və onlar şahidlik edərək
desinlər: "Sən Allahı və padşahı lə'nətlədin".
Sonra onu bayıra çıxarın və ölənə qədər
daşqalaq edin».
11 Navotun yaşadığı şəhərin adamları –
orada yaşayan ağsaqqallar və ə'yanlar
İzevelin onlara göndərdiyi məktublarda
yazdığı kimi etdilər. 12 Onlar oruc e'lan etdilər
və Navotu xalqın arasında yuxarı başda
əyləşdirdilər. 13 İki nəfər yaramaz adam gəlib
onun qarşısında oturdu. Onlar xalqın önündə
Navota qarşı «Navot Allahı və padşahı
lə'nətlədi» deyə şahidlik etdilər. Sonra onu
şəhərin kənarına çıxartdılar və daşqalaq edib
öldürdülər. 14 Onlar İzevelə xəbər göndərib
dedilər: «Navot daşqalaq olunaraq öldü».
15 İzevel Navotun daşqalaq olunaraq öldüyünü
eşidəndə Axava dedi: «Qalx İzreelli Navotun
sənə pulla vermək istəmədiyi üzüm bağını
özünə mülk götür, çünki Navot sağ deyil,
ölüb». 16 Axav İzreelli Navotun öldüyünü
eşidəndə onun üzüm bağını özünə mülk
götürmək üçün oraya yollandı.

### *Axavın nəsli barədə İlyasın peyğəmbərliyi*

17 Tişbeli İlyasa Rəbbin bu sözü nazil oldu:
18 «Qalx Samariyada İsrailə padşahlıq edən
Axavı qarşılamağa get. O, Navotun üzüm
bağındadır. Axav onu mülk etmək üçün oraya
yollandı. 19 Sən ona söylə ki, Rəbb belə deyir:
“Qatillik etdin, hələ özünə mülk də
götürürsən?” Sonra ona söylə ki, Rəbb belə
deyir: “Navotun qanını köpəklərin yaladıqları
yerdə sənin də qanını köpəklər yalayacaq”».

20 Axav İlyasa dedi: «Ey düşmənim, axır
məni də tapdın». O dedi: «Bəli, səni də
tapdım. Sən Rəbbin gözündə pis olan işlər
etməyə özünü təslim etdin. 21 “Budur, sənin
üzərinə bəla gətirəcəyəm, səni yandırıb məhv
edəcəyəm. İsraildə Axavın nəslindən divar
isladan hər kəsi – bütün kişiləri, istər kölə
olsun, istər azad, kəsib atacağam. 22 Mən sənin
evini Nevat oğlu Yarovamın evi kimi, Axiya
oğlu Baaşanın evi kimi edəcəyəm. Çünki sən
İsrailə günah etdirərək Məni qəzəbləndirdin”.
23 Rəbb İzevel barədə dedi: “İzreel divarının
içərisində İzeveli köpəklər yeyəcək”.
24 Axavın nəslindən şəhərdə öləni köpəklər,
çöldə öləni isə quşlar yeyəcək».

25 Həqiqətən, Axav kimi Rəbbin gözündə
pis olan işlər etməyə özünü təslim edən hələ
olmamışdı. Arvadı İzevel onu buna təhrik
edirdi. 26 Axav İsrail övladlarının önündən
Rəbbin qovduğu Emorlular kimi bütlərə
xidmət edərək çox iyrənc işlər etdi.

27 Axav bu sözləri eşidəndə libasını cırıb
əyninə çul geydi. O, oruc tutub çulda yatdı və
qüssəyə batdı. 28 Tişbeli İlyasa Rəbbin bu sözü
nazil oldu: 29 «Gördünmü Axav Mənim
önümdə necə alçaldı? Önümdə alçaldığı üçün
Mən bu bəlanı onun dövründə
göndərməyəcəyəm, oğlunun dövründə bu
bəlanı onun evinə göndərəcəyəm».

### *Yehoşafat, Axav və peyğəmbər Mikeya*

*(2Saln. 18:2-27)*

22 1 Üç il keçdi. Bu müddətdə Aramla
İsrail arasında müharibə getmirdi.
2 Üçüncü ildə Yəhuda padşahı Yehoşafat
İsrail padşahının yanına gəldi. 3 İsrail padşahı
ə’yanlarına dedi: «Bilirsiniz ki, Ramot-Gilead
bizimdir? Biz isə onu Aram padşahının
əlindən almaq üçün heç nə etmirik». 4 Sonra o,
Yehoşafata dedi: «Sən mənimlə birgə
vuruşmaq üçün Ramot-Gileada gedirsənmi?»
Yehoşafat İsrail padşahına dedi: «Məni özün
kimi, xalqımı xalqın kimi, atlarımı atların
kimi hesab et». 5 Yehoşafat yenə İsrail
padşahına dedi: «Əvvəlcə görək Rəbbin sözü
nədir?» 6 İsrail padşahı dörd yüzə qədər
peyğəmbəri topladı və onlara dedi:
«Vuruşmaq üçün Ramot-Gileada gedim ya
getməyim?» Onlar dedilər: «Get, Xudavənd
onu padşaha təslim edəcək». 7 Yehoşafat dedi:
«Burada olanlardan başqa, Rəbbin bir
peyğəmbəri yoxdur ki, ondan soruşaq?»
8 İsrail padşahı Yehoşafata dedi: «Rəbdən
soruşmaq üçün bir nəfər də var: İmla oğlu
Mikeya. Ancaq mənim ondan zəhləm gedir,
çünki yaxşılığıma deyil, pisliyimə
peyğəmbərlik edir». Yehoşafat dedi: «Qoy
padşah belə söyləməsin». 9 İsrail padşahı bir
saray xidmətçisini çağırıb dedi: «Tez İmla
oğlu Mikeyanı buraya gətir». 10 İsrail padşahı
və Yəhuda padşahı Yehoşafat Samariya
darvazalarının girəcəyindəki meydanda şahlıq
libası geymiş halda hər biri öz taxtında
oturmuşdu və bütün peyğəmbərlər onların
önündə peyğəmbərlik edirdilər. 11 Kenaana
oğlu Sidqiya özünə dəmir buynuzlar düzəldib
dedi: «Rəbb belə deyir: “Aramlıları qırıb
qurtarana qədər onları beləcə
buynuzlayacaqsan”». 12 Bütün peyğəmbərlər
də peyğəmbərlik edərək deyirdilər: «Ramot-
Gileada get, qalib gələcəksən, Rəbb onu
padşaha təslim edəcək».

13 Mikeyanı çağırmaq üçün gedən qasid ona
dedi: «İndi peyğəmbərlər padşaha bir ağızdan
xoş sözlər deyirlər. Sənin sözün də onlardan
birinin sözü kimi olsun və yaxşılığa danış».
14 Mikeya dedi: «Var olan Rəbbə and olsun ki,
Rəbb mənə nə desə, onu söyləyəcəyəm». 15 O,
padşahın yanına gəldi və padşah ona dedi:
«Mikeya, vuruşmaq üçün Ramot-Gileada
gedək, yoxsa getməyək?» Mikeya ona dedi:
«Get, qalib gələcəksən, Rəbb onu padşaha
təslim edəcək». 16 Padşah ona dedi: «Səni
neçə dəfə and içdirim ki, mənə Rəbbin adı ilə
həqiqətdən başqa bir şey söyləməyəcəksən?»
17 Mikeya dedi: «Mən bütün İsraillilər təpələr
üstündə çobanı olmayan sürü kimi səpələnmiş
gördüm. Rəbb dedi: “Onların ağaları yoxdur.
Qoy hər biri salamat öz evinə qayıtsın”».

---

***21:23*** *– 2Pad. 9:36*

***22:17*** *– Say. 27:17; Yez. 34:5; Zək. 10:2; Mat. 9:36; Mrk. 6:34*

[18] İsrail padşahı Yehoşafata dedi: «Sənə
deməmdimmi o mənim yaxşılığıma deyil,
pisliyimə peyğəmbərlik edəcək?» [19] Mikeya
dedi: «Onda Rəbbin sözünü eşit. Mən Rəbbi
öz taxtında oturmuş və bütün göylər ordusunu
Onun sağında və solunda durmuş gördüm.
[20] Rəbb dedi: "Ramot-Gileada gedib həlak
olması üçün Axavı kim tovlayacaq?" Biri elə
dedi, o biri belə. [21] Bir ruh irəli çıxıb Rəbbin
önündə dayandı və dedi: "Mən onu
tovlayaram". Rəbb ona dedi: "Necə?" [22] O
dedi: "Mən çıxıb bütün peyğəmbərlərin
ağzında yalançı bir ruh olaram". Rəbb dedi:
"Sən onu tovlayacaqsan, bunu bacarırsan, get
və belə et"». [23] Mikeya davam etdi: «İndi,
budur, Rəbb sənin bütün bu peyğəmbərlərinin
ağzına yalançı bir ruh qoymuşdur. Beləcə
Rəbb sənin başına bəla gətirməyi qərara aldı».
[24] Kenaana oğlu Sidqiya yaxınlaşdı və
Mikeyanın yanağına vurub dedi: «Rəbbin
Ruhu səndə danışmaq üçün məndən sənə necə
keçdi?» [25] Mikeya dedi: «Sən gizlənmək üçün
iç otağa girdiyin gün bunu biləcəksən».
[26] İsrail padşahı dedi: «Mikeyanı götür, onu
şəhər rəisi Amonun və padşahın oğlu Yoaşın
yanına göndər. [27] Onlara söylə ki, padşah belə
deyir: "Bu adamı zindana atın və mən salamat
qayıdana qədər ona çox az çörək və su
verərək zülm edin"». [28] Mikeya dedi: «Əgər
sən salamat qayıtsan, Rəbb mənim vasitəmlə
danışmamışdır». Sonra dedi: «Ey camaat,
hamınız eşidin!»

### *Axavın ölümü*

*(2Saln. 18:28-34)*

[29] İsrail padşahı və Yəhuda padşahı
Yehoşafat Ramot-Gileada getdilər. [30] İsrail
padşahı Yehoşafata dedi: «Mən qiyafəmi
dəyişib döyüşə girəcəyəm, ancaq sən öz
şahlıq libasını gey». İsrail padşahı qiyafəsini
dəyişib döyüşə girdi. [31] Aram padşahı öz
döyüş arabalarının otuz iki başçısına «nə
kiçiklə, nə də böyüklə vuruşun, yalnız İsrail
padşahı ilə döyüşə girin» deyə əmr etmişdi.
[32] Döyüş arabalarının başçıları Yehoşafatı
görəndə dedilər: «Yəqin İsrail padşahı budur».
Dönüb onunla vuruşmağa getdilər. Onda
Yehoşafat çığırdı. [33] Döyüş arabalarının
başçıları onun İsrail padşahı olmadığını
görəndə ardınca getməyib geri qayıtdılar.
[34] Bir adam nişan almadan yay çəkib İsrail
padşahını zirehlərin birləşdiyi yerdən vurdu.
Padşah arabaçısına dedi: «Döndər və məni
döyüşdən çıxar, çünki yaralanmışam». [35] O
gün döyüş qızışdı. Padşah öz döyüş
arabasında Aramlıların önündə söykənib
dayandı. Döyüş arabası onun yarasının qanına
bulaşdı. Axşam o öldü. [36] Günəş batmaqda
ikən ordugahın içində «Hər kəs öz şəhərinə!
Hər kəs öz ölkəsinə!» deyə car çəkildi.
[37] Beləcə padşah öldü və onu Samariyaya
gətirib orada basdırdılar. [38] Arabanı Samariya
hovuzunun suyunda yudular. Rəbbin
söylədiyi sözə görə köpəklər onun qanını
yaladı. Fahişələr orada yuyunardı.
[39] Axavın qalan işləri və onun etdiyi hər şey,
fil sümüyündən tikdiyi saray və tikdiyi bütün
şəhərlər barədə İsrail padşahlarının
salnamələr kitabında yazılmışdır. [40] Axav
ataları ilə uyudu və yerinə oğlu Axazya
padşah oldu.

### *Yəhuda padşahı Yehoşafat*

*(2Saln. 20:31-21:1)*

[41] İsrail padşahı Axavın padşahlığının
dördüncü ilində Asa oğlu Yehoşafat Yəhuda
üzərində padşah oldu. [42] Yehoşafat padşah
olduğu vaxt otuz beş yaşında idi. O,
Yerusəlimdə iyirmi beş il padşahlıq etdi.
Anasının adı Şilxi qızı Azuva idi. [43] O, atası
Asanın yolu ilə getdi və Rəbbin gözündə
doğru olan işlər edərək bunlardan kənara
çıxmadı. Ancaq səcdəgahlar aradan
qaldırılmadı, xalq hələ səcdəgahlarda qurban
gətirir və buxur yandırırdı. [44] Yehoşafat İsrail
padşahı ilə sülh içində yaşadı.
[45] Yehoşafatın qalan işləri, onun göstərdiyi
hünər və necə döyüşdüyü barədə Yəhuda
padşahlarının salnamələr kitabında
yazılmışdır. [46] O, atası Asanın qovmadığı
mə'bəd fahişəliyi ilə məşğul olan kişiləri
ölkədən qovdu.
[47] Edomda padşah yox idi, bir canişin orada
hökmranlıq edirdi. [48] Yehoşafat qızıl dalınca
Ofirə getmək üçün Tarşiş gəmiləri[8] düzəltdi.
Ancaq gedə bilmədilər, çünki gəmilər Esyon-
Geverdə parçalandı. [49] Onda Axav oğlu
Axazya Yehoşafata dedi: «Qoy gəmilərdə
sənin adamlarınla birgə mənim adamlarım da
getsinlər». Ancaq Yehoşafat razı olmadı.
[50] Yehoşafat ataları ilə uyudu və atası
Davudun şəhərində, ataların yanında

---

[8] **22:48** *Tarşiş gəmiləri* yaxud *ticarət gəmiləri.*

basdırıldı. Onun yerinə oğlu Yehoram padşah
oldu.

### *İsrail padşahı Axazya*

51 Yəhuda padşahı Yehoşafatın
padşahlığının on yeddinci ilində Axav oğlu
Axazya Samariyada İsrail üzərində padşah
oldu. O, iki il İsrail üzərində padşahlıq etdi.
52 Axazya Rəbbin gözündə pis olan işlər etdi,
ata-anasının və İsrailə günah etdirmiş Nevat
oğlu Yarovamın yolu ilə getdi. 53 Axazya
atasının etdiyi kimi Baala qulluq və səcdə
edərək İsrailin Allahı Rəbbi qəzəbləndirdi.